

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

05 sentyabr 2026-cı il, şənbə
№ 160 (7227)
Qiyməti 60 qəpik


## Prezident İlham Əliyev İtaliyanın Baş nazirini təbrik edib



Bax səh. 2

## Qoşulmama Hərəkatında Azərbaycanın rolu yüksək qiymətləndirilir




Bax səh. 2

## ATƏT PA-nın rəhbərindən etiraf: Azərbaycan regionda sülhün bərqərar olunması üçün nadir bir model yaradıb

Bax səh. 4

## Mərkəzi Bank qaydaları dəyişdi

Mərkəzi Bank (MB) bankların sistem əhəmiyyətli bank kimi qiymətləndirilməsi meyarları, eləcə də bank kapitalının və kapital adekvatlığının hesablanması qaydalarına dəyişikliklər edib. Belə ki, bankların qiymətləndirilməsi zamanı istifadə olunan bəzi indikatorlar üzrə cari yanaşmanın təkmilləşdirilməsi və tətbiqi prosesinin optimallaşdırılması məqsədilə "Bankın sistem əhəmiyyətli bank kimi qiymətləndirilməsi Meyarları"nda və "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları" dəyişib. Dəyişikliklər bəzi indikatorlar üzrə hesablama yanaşmalarının təkmilləşdirilməsi, meyarların "Azərbaycan Respublikası Mərkəzi Bankının banklara riskəsaslı nəzarət üzrə Təlimatı"na əsasən banklara nəzarət tsikli ilə əlaqələndirilməsi, habelə sistem əhəmiyyətlilik kapital buferində artım və ya azalma baş verdiyi hallarda həmin dəyişikliklərin qüvvəyə minmə müddəti ilə bağlı yeni yanaşmanın müəyyənləşməsi ilə əlaqədardır. Yeniliyə əsasən, sistem əhəmiyyətli bankların siyahısı hər il sentyabrın 1-nə qədər Mərkəzi Bankın İdarə Heyətinin qərarı ilə təsdiq ediləcək.

Qeyd edək ki, sistem əhəmiyyətli banklar qlobal və ya milli maliyyə sisteminin sabitliyi üçün həyati əhəmiyyət daşıyan bank və maliyyə institutlarıdır. Sistem əhəmiyyətli banklar bütün maliyyə sektorunun dinamikasını müəyyən edir və iqtisadiyyatın davamlılığı üçün onların idarə edilməsi və nəzarət mexanizmləri olduqca vacibdir. Çünki həmin bankların maliyyə dayanıqlığının pozulması sistem risklərin aktivasiyasına gətirib çıxara bilər. Bu baxımdan, Mərkəzi Bankın əsas vəzifəsi hər hansı bankın sistem əhəmiyyətliliyini adekvat şəkildə müəyyən etməkdən ibarətdir. Bunun üçün potensial riskləri azaltmaq...

Bax səh. 3

## Dövlət Proqramında yeni dəyişikliklər...

### Naxçıvanın ixrac və logistika imkanlarını artırmaq üçün təkmilləşdirmələr aparılıb



Bax səh. 3

## Bakıda Avropa-Azərbaycan münasibətlərinə dair müzakirələr aparılıb

Bax səh. 4

## Blogerlər vergiyə cəlb olunur

Bax səh. 5

## İrəvanda Azərbaycan təhsil tarixində iz qoyan fədakar maarifçi

Bax səh. 6

## Qərb mediasının anti-Azərbaycan siyasəti...

Qlobal informasiya məkanında qeyri-adi transformasiyalar baş verir. Nəzərə alaq ki, müasir dünyada rəqəmsallaşdırma və virtual münasibətlər genişləndikcə informasiya təhlükəsizliyinin rolu da artmaqdadır. İnformasiya təhlükəsizliyi milli təhlükəsizlik sisteminin ən mühüm istiqamətlərindən birinə çevrilib. Bu gün informasiya təhlükəsizliyinin kompleks təminatı həyata keçirilmədən milli suverenliyin qorunması, beynəlxalq terrorizm, kibercinayətkarlıq, kriminal iqtisadiyyatla mübarizə, şəxsi həyatın toxunulmazlığının təmin edilməsi kimi problemlərin uğurlu həlli mümkün deyil.

Azərbaycanda da informasiya təhlükəsizliyi, dövlət orqanlarının informasiya ehtiyatlarının qorunması, bu sahədə təhdidlərin qarşısının alınması, dövlət və qeyri-dövlət informasiya infrastruktur subyektlərində kibertəhlükəsizlik sahəsində risklərin qiymətləndirilməsi və idarə olunması ilə bağlı ciddi işlər aparılır. Milli informasiya ehtiyatlarının qorunması, informasiya sahəsində milli maraqların müdafiəsi dövlətimizin milli təhlükəsizlik siyasətinin istiqamətlərindən biridir. Bu siyasətin uğurla həyata keçirilməsi və informasiya təhlükəsizliyinin təmin edilməsi daim diqqət mərkəzindədir. Bununla belə, müəyyən xarici dairələr ölkəmizlə bağlı dezinformasiya yaymaq niyyətindən əl çəkmək istəmirlər.

Nəzərə alaq ki, ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycan Cənubi Qafqazda yeni reallıqlar yaratmaqla yanaşı, beynəlxalq müstəvidə mövqelərini əhəmiyyətli dərəcədə gücləndirir. Lakin ölkəmizin inkişafını istəməyən xarici qüvvələr Azərbaycanın imicinə zərbə vurmaq üçün dezinformasiyalar...

Bax səh. 5



## Ukrayna və Moldovanın Aİ-yə üzvlüyü yolunda "qırmızı işıq"

Bax səh. 6



## Bir kliklə başlayan asılılıq

Bax səh. 7



# Prezident İlham Əliyev İtaliyanın Baş nazirini təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyanın Baş naziri Ciorcia Melonini ən uzun müddət vəzifədə olması münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, bu barədə dövlətimizin başçısının "X" sosial şəbəkə hesabında paylaşım edilib.

"İtaliya Respublikasının tarixində ən uzun müddət Baş nazir vəzifəsində çalışan şəxs olması münasibətilə İtaliyanın Baş naziri Ciorcia Meloniyə səmimi təbriklərimi çatdırıram.

Bu tarixi nailiyyət onun güclü liderliyini, siyasi qətiyyətini və İtaliya xalqının ona olan etimadını əks etdirir.

Baş nazir Meloninin Azərbaycan ilə İtaliya arasında strateji tərəfdaşlığın möhkəmləndirilməsində şəxsi rolunu və dəyərli töhfəsini yüksək qiymətləndirirəm.

Əminəm ki, dostluğumuz və qarşılıqlı faydalı əməkdaşlığımız ölkələrimizin və xalqlarımızın rifahı naminə bundan sonra da dərinləşəcək və genişlənəcək", - təbrikdə deyilir.

# Qoşulmama Hərəkatında Azərbaycanın rolu yüksək qiymətləndirilir

## İsveçrənin Cenevrə şəhərində Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin fəaliyyəti geniş müzakirə olunub




Azərbaycan hər zaman üzv olduğu beynəlxalq təşkilatların sıralarında yüksək fəallığı ilə fərqlənir. Prezident İlham Əliyev bir qayda olaraq yüksək tribunalardan qlobal çağırışları nəzərə almaqla mühüm təşəbbüslər irəli sürür və sonradan bu təşəbbüslər dünyada təqdir olunaraq beynəlxalq gündəliyə daxil edilir.

Ölkəmizin Qoşulmama Hərəkatına (QH) uğurlu sədrliyi dönəmində qurumun funksionallığının artmasına, beynəlxalq nüfuzunun yüksəlməsinə mühüm töhfələr verməsi bunun əyani təsdiqidir. Hazırda bu təcrübə beynəlxalq səviyyədə müsbət nümunə kimi öyrənilir. Elə bu günlərdə İsveçrənin Cenevrə şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin fəaliyyəti və rolu geniş müzakirə olunub. Müzakirələr Milli Məclisin sədri Sahibə Qafarovanın İsveçrəyə işgüzar səfəri çərçivəsində, Cenevrədə akkreditə olunmuş diplomatik korpus rəhbərləri və nümayəndələri ilə keçirdiyi görüş zamanı baş tutub. S.Qafarova vurğulayıb ki, beynəlxalq və regional parlament təşkilatları arasında əməkdaşlığın gücləndirilməsi təcrübə mübadiləsinə, ortaq problemlərə birgə həllərin tapılmasına və müxtəlif regionların prioritetlərinin qlobal gündəmdə daha dolğun əks olunmasına imkan yaradır.

### Ölkəmizin QH-da fəal təmsilçiliyi

Respublikamızın Qoşulmama Hərəkatında fəal təmsilçiliyi Azərbaycan diplomatiyasının böyük uğurudur. Bu gün tərkibində 120 dövləti birləşdirən və dünyada BMT-dən sonra ikinci böyük təsisat sayılan Qoşulmama Hərəkatı ötən əsrin ortalarından etibarən təşkilatlanmağa başlayıb. 1955-ci ildə İndoneziyanın Bandunq şəhərində keçirilən Asiya-Afrika Konfransı Qoşulmama Hərəkatının təsis edilməsi istiqamətində ilk əhəmiyyətli addım hesab edilir. 1-6 sentyabr 1961-ci il tarixlərində keçmiş Yuqoslaviyanın Belqrad şəhərində Asiya və Afrikanın 25 dövlət və hökumət başçısının iştirakı ilə təşkil olunmuş Zirvə Görüşündə Qoşulmama Hərəkatının institusional əsası qoyulub. QH öz fəaliyyətində 9 bənddən ibarət "Bandunq prinsipləri"ni əsas götürür.

Respublikamız 2011-ci ildə Qoşulmama Hərəkatına tamhüquqlu üzv qəbul olunub. Ölkəmizin QH-da təmsilçiliyi uzun zaman müddətini əhatə etməsə də, ötən dövrdə təsisatda təmsil olunan dövlətlərdə Azərbaycana yüksək inam və etimad formalaşıb. Qısa zaman kəsiyində respublikamızın qurumun sıravi üzvlüyündən onun sədrliyinə yüksəlməsi bunun əyani təsdiqidir. Hərəkata üzv ölkələrin 2016-cı ildə Venesuelada keçirilmiş Zirvə görüşündə quruma 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul edilib. Qoşulmama Hərəkatı dövlət və hökumət başçılarının 25-26 oktyabr 2019-cu il tarixlərində Bakıda keçirilmiş 18-ci Zirvə Görüşündə quruma sədrlik Azərbaycana həvalə olunub. Ölkəmizin beynəlxalq təsisata sədrliyi 2022-ci ildə bitməli idi. Ancaq Azərbaycanın səmərəli fəaliyyətinin yüksək dəyərləndirilməsinin əlaməti olaraq QH-na üzv dövlətlər respublikamızın sədrlik dövrünün daha bir il uzadılması ilə bağlı müraciət ünvanladılar. Azərbaycan isə bu etimada qarşılıq verərək müraciəti qəbul edib.

Qısa müddətdə QH-da Azərbaycana belə yüksək inamın formalaşması isə heç də təsadüfi deyil. Bu, bilavasitə ölkəmizin təsisatla xoş mərama əsaslanan səmərəli əməkdaşlıq münasibətləri qurmasının nəticəsidir. Respublikamız 2011-ci ildən bəri Qoşulmama Hərəkatının dünyada nüfuzunun artması, digər beynəlxalq təşkilatlarla əlaqələrinin möhkəmlənməsi və başqa istiqamətlərdə fəal, nəticəyönümlü çalışmalar ortaya qoyub. Bunun təsdiqi üçün cəmi bir neçə faktı xatırlamaq kifayətdir.

Məlumdur ki, Qoşulmama Hərəkatının üzvlərinin böyük qismi inkişaf etməkdə olan dövlətlərdir. Azərbaycan Qoşulmama Hərəkatı ilə münasibətlərdə bu amili nəzərə alır və ehtiyac yarandığı təqdirdə humanitar aksiyalarda fəal iştirak edir. 2005-ci ildən etibarən Azərbaycan 90-dan çox ölkəyə humanitar və texniki yardımlar göstərib. Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi müxtəlif ölkələrdə yoxsulluğun azaldılması, elm, mədəniyyət, səhiyyə, informasiya texnologiyalarının inkişafı, su resurslarından səmərəli istifadə olunması, qrant proqramları və digər sahələrdə layihələr həyata keçirir. Azərbaycan 2018-ci ildən etibarən Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına ölkəmizin ali məktəblərində təhsil almaq məqsədilə tam ödənişli təqaüdlər verir. Bu gün Hərəkata üzv olan 30-dan çox ölkənin gəncləri bu proqramdan faydalanırlar.

Eyni zamanda, indiyədək respublikamız QH-nin bir sıra tədbirlərinə uğurla ev sahibliyi edib. Qoşulmama Hərəkatının 2019-cu ildə Bakıda keçirilən 18-ci Sammitinin böyük rəmzi mənası var. Belə ki, Avropa qitəsi 1989-cu il Belqrad Zirvə görüşündən 30 il sonra Qoşulmama Hərəkatında təmsil olunan ölkələrin dövlət və hökumət başçılarının görüşünə yenidən ev sahibliyi edib. Bununla da Azərbaycan Qoşulmama Hərəkatının ruhuna və prinsiplərinə sadiq olduğunu bir daha bütün dünyaya nümayiş etdirib.




### Azərbaycanın QH-ya nümunəvi sədrliyi

Məsuliyyətli dövlət olan Azərbaycan Qoşulmama Hərəkatına sədrlik edəcəyi dövr üçün geniş, kifayət qədər səmərəli fəaliyyət planı hazırlamışdı. Lakin 2019-cu ilin sonlarından başlayan və qısa müddətdə 200-dən çox ölkəyə yayılan, özü ilə bərabər həyatımıza bir sıra çətinliklər gətirən koronavirus pandemiyası qlobal miqyasda çağırışları dəyişdi. Azərbaycan da Qoşulmama Hərəkatına sədrlik fəaliyyətini yeni çağırışlara adekvat qurmaq məcburiyyətində qaldı. Respublikamız qlobal səciyyə daşıyan pandemiyaya qarşı beynəlxalq həmrəyliyin gücləndirilməsinə hesablanan bir sıra təşəbbüslər irəli sürüb. Məhz Azərbaycanın təklifi əsasında 4 may 2020-ci il tarixində QH-nin COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşü keçirildi. Prezident İlham Əliyevin BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizə üzrə Xüsusi sessiyasının keçirilməsi ilə bağlı təşəbbüsü də bütün dünyada böyük rezonans doğurdu. Belə ki, əksər qitələrdən olan 150-dən artıq dövlət bu təşəbbüsə dəstəyini bildirdi və Xüsusi sessiya 3-4 dekabr 2020-ci il tarixlərində baş tutdu. Bundan başqa, Azərbaycanın təşəbbüsü ilə Hərəkatın tarixində ilk dəfə olaraq QH Modeli Beynəlxalq Simulyasiya Təlimi keçirildi.

Bütövlükdə, QH-ya sədrliyi dövründə Azərbaycanın prioritetlərinin əhatə dairəsi kifayət qədər geniş olub. Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışında ehtiyacı olan ölkələrə yardım göstərilməsinin Azərbaycanın sədrliyinin prioritetlərindən biri olduğunu diqqətə çatdırıb. Bu xüsusda fikirlərini ifadə edən dövlətimizin başçısı vurğulayıb: "Azərbaycan əksəriyyəti QH-yə üzv olan 80-dən çox ölkəyə ya ikitərəfli qaydada, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə COVID-19 ilə bağlı maliyyə və humanitar dəstək göstərib. Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində könüllü töhfə verib. Biz, həmçinin beş ölkəni peyvəndlə təmin etmişik".

Afrika və inkişaf etməkdə olan kiçik ada dövlətlərinə postpandemiya dövründə bərpanı dəstəkləmək üçün iki qlobal çağırış elan etdiyini xatırladan Prezident İlham Əliyev Azərbaycanın ilk donor kimi hər iki çağırış üçün 1 milyon ABŞ dolları ayırdığını da diqqətə çatdırıb.

### Hərəkatın institusional əsaslarının möhkəmləndirilməsi

Respublikamızın QH-nin institusional əsaslarının genişləndirilməsində və möhkəmləndirilməsində nümayiş etdirdiyi liderlik keyfiyyətləri də təqdirəlayiqdir. Ölkəmiz Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılması təşəbbüsü ilə çıxış edib. Şəbəkənin ilk iclası 2022-ci ilin iyun ayında Bakıda keçirilib. Bu günlərdə Cenevrədə baş tutan müzakirələrdə Azərbaycanın təşkilata sədrliyi dövründə Parlament Şəbəkəsinin strukturunun uğurla formalaşdırıldığı və digər qlobal təşkilatlarla əlaqələrinin genişləndirildiyi diqqətə çatdırılıb. Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin indiyə qədər keçirdiyi tədbirlərə 70-dən çox ölkədən 1000-dən artıq parlament rəhbəri və deputat qatılıb.

Qoşulmama Hərəkatının Gənclər Təşkilatının yaradılması təşəbbüsü də Azərbaycandan gəlib. 2022-ci il 25-29 iyul tarixində ölkəmizdə keçirilən Qoşulmama Hərəkatı Gənclər Sammiti çərçivəsində Hərəkatın 61 illik tarixində ilk dəfə olaraq QH-na üzv ölkələrin gənclərini birləşdirən Gənclər Təşkilatı yaradılıb. Bu təşkilatın yaradılması Qoşulmama Hərəkatı Gənclər Sammitində iştirak edən üzv dövlətlərin nümayəndələri tərəfindən müsbət qarşılanıb və dəstəklənib. Qoşulmama Hərəkatına üzv ölkələrin gənclərini birləşdirən bu mühüm təşəbbüsə görə Azərbaycan tərəfinə minnətdarlıq ifadə olunub. Qoşulmama Hərəkatı Gənclər Sammiti çərçivəsində Şuşaya səfər edən nümayəndə heyətləri Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal altında saxlanması, işğal dövründə baş vermiş dağıntılar barədə məlumatlandırılıb, həmçinin Azərbaycan hökumətinin həyata keçirdiyi bərpa-yenidənqurma işləri, o cümlədən Şuşa şəhərinin tarixi və memarlıq abidələri ilə tanış olublar. Tarixə Şuşa Akkordu (Şuşa razılaşması) kimi düşən Qoşulmama Hərəkatı Gənclər Təşkilatının yaradılmasına dair sənədin qəbulu ilə ölkəmizin mədəniyyət paytaxtının adı bu mötəbər qurumun tarixinə yazılıb.

Sayı kifayət qədər çox olan bu kimi faktlar Azərbaycanın QH-da mühüm rolu barədə konkret təsəvvür yaradır. Təsisata üzv dövlətlərdə ölkəmizə olan yüksək inam və etimadının əsasında da məhz bu amillər dayanır.

*Mübariz ABDULLAYEV*



# Dövlət Proqramında yeni dəyişikliklər...

## Naxçıvanın ixrac və logistika imkanlarını artırmaq üçün təkmilləşdirmələr aparılıb

Prezident İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında" imzaladığı sərəncama əsasən, adıçəkilən proqramda bəzi dəyişikliklər edilib. Dəyişikliklər muxtar respublikanın sosial-iqtisadi inkişaf prioritetlərinin müasir çağırışlara uyğunlaşdırılması və tədbirlərin icra mexanizmlərinin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır, bölgədə iqtisadi fəallığın və ixrac imkanlarının genişləndirilməsi, nəqliyyat əlçatanlığının artırılması, təhsil və sosial xidmətlərin əhatəsinin genişləndirilməsi, eləcə də ekoloji dayanıqlılığın gücləndirilməsi istiqamətində tədbirlərin daha nəticəyönümlü təşkilinə xidmət edir.

Dəyişikliyə əsasən, muxtar respublikada çalışan sahibkarlara güzəştli kreditlərin verilməsi, təşviqat işlərinin aparılması və digər maliyyə dəstəyi tədbirləri, eləcə də ixracın dəstəklənməsi istiqamətində yanaşmalar dəqiqləşdirilib. İstehsal olunan məhsulların ölkədaxili və xarici bazarlara çıxışının sürətləndirilməsi, yerli məhsulların rəqabətqabiliyyətliliyinin artırılması və daşınma xərclərinin optimallaşdırılması məqsədilə sahibkarlara məqsədli logistik dəstək mexanizmlərinin tətbiqi nəzərdə tutulur. Stimulların əsas məqsədi müntəzəm yükdaşımaların təşkili və nəqliyyat marşrutlarının effektivliyinin yüksəldilməsi ilə ixrac həcminin artırılmasıdır.

### Orqanik məhsulların istehsal və ixracının gücləndirilməsi

Digər dəyişiklik bu bölgə üçün spesifik və orqanik kənd təsərrüfatı məhsullarının istehsalının müəyyənləşməsini, brendləşdirilməsini və təbliğini nəzərdə tutur. Ümumilikdə, bu istiqamət üzrə başlıca məqsəd Naxçıvanda rəqabətqabiliyyətli orqanik məhsulların istehsal potensiallarını daha da gücləndirmək və "Made in Azerbaijan" brendi ilə çoxçeşidli keyfiyyətli aqrar ixrac blokunu möhkəmləndirməkdir. Sözsüz ki, muxtar respublikanın bunun üçün zəngin təbii iqlimi və istehsal imkanları mövcuddur. Bu region kənd təsərrüfatı məhsullarının keyfiyyətinə görə, qlobal bazarlarda rəqabətdə xüsusi üstünlük qazanmaq imkanlarına malikdir. Bu təşviqedici siyasət həmin hədəflərin reallaşmasına imkan verəcək və Naxçıvanın aqrar-sənaye gücünü dünyaya nümayiş etdirəcək. Yeri gəlmişkən, "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində Naxçıvanda aqrar sektorun modernləşdirilməsi, ekstensiv istehsalatdan intensiv modelə keçid və ərzaq təhlükəsizliyinin təmin olunması, habelə aqrar məhsul istehsalı kooperativləri və onların ittifaqlarının dövlət dəstəyi ilə pilot olaraq yaradılması və fəaliyyətinin dəstəklənməsi istiqamətində mühüm strateji hədəflər müəyyən edilib. Yeni institusional və təşviqedici alətlər də məhz həmin hədəflərə söykənir.




Bu tədbirlərə əhalinin məşğulluq imkanlarının artırılması, ailə təsərrüfatlarının və kiçik biznes klasterlərinin təşkili üçün stimullaşdırıcı və güzəştli biznes alətlərinin tətbiqi daxildir. Eləcə də əhalinin yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə "MİDA" tərəfindən Naxçıvanda güzəştli mənzillərin tikintisinə başlanılacaq. Eləcə də Naxçıvan şəhərində 518 mənzilli sosial evlərin və yeni otel komplekslərinin sırasında yer alır.

### Əhalinin sosial xidmətlərlə əhatə olunmasının genişləndirilməsi

Naxçıvan Muxtar Respublikası Dövlət proqramları və infrastruktur layihələrini uğurla həyata keçirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir.

Naxçıvanda infrastrukturun müasirləşdirilməsi, magistral və birinci dərəcəli yolların beynəlxalq standartlara uyğunlaşdırılması da əsas prioritetlərdən biridir. Çünki yol həm tranzitlərin maneəsiz hərəkəti, binesin xarici bazarlara çıxışı, həm də turistlərin təhlükəsizliyi baxımından mühüm əhəmiyyət daşıyır. Bu məqsədlə avtomobil yollarının modernləşdirilməsi, eləcə də hava nəqliyyatı sektorunda imkanların genişləndirilməsi əsas prinsiplər kimi Dövlət Proqramında yer alır.

Həssas əhali qruplarının sosial xidmətlərlə əhatə olunmasının genişləndirilməsi də proqramda hədəf istiqamətsinin tikintisinə başlanılması üçün müvafiq tədbirlər görülür.

Ümumilikdə, dövlət başçısının sərəncamına əsasən, muxtar respublikanın inkişaf proqramında nəzərdə tutulan dəyişikliklər Naxçıvanın hərtərəfli inkişafı və bölgənin iqtisadi güc mərkəzlərindən birinə çevrilməsini təmin edəcək.

**E.CƏFƏRLİ**

## Zəngəzur-Naxçıvan dəhlizi Türkiyə və Avropaya məhsul ixracına qapı açacaq

Hazırda Zəngəzur dəhlizi quruculuğu yeni mərhələyə daxil olub, bu, magistral tranzit xəttinin Naxçıvan Muxtar Respublikası ilə birbaşa bağlantılarını təmin edəcək. Hazırda Naxçıvan dəmir yolu xəttinin Salamməlik stansiyasından Ermənistanla dövlət sərhədinədək olan 7 kilometrlik hissəsi üzrə layihələndirmə işləri tamamlanıb və tikinti işlərinə başlanılıb. Ərazidə mühəndislik və infrastrukturun yaradılması işlərinin bir qismi yekunlaşıb, digər hissəsi isə davam edir. Sentyabrın sonunadək burada yolun üst quruluşunun 6,3 kilometrlik hissəsi quraşdırılacaq. 6,3 kilometrdən sonra qalan, yəni sərhəddən 700 metr məsafədə yerləşən hissədə isə hələ minatəmizləmə işləri aparılır, bu işlər işlər başa çatandan və layihələrin uzlaşdırılması məqsədilə TRIPP marşrutu üzrə layihə hazır olduqdan sonra tikinti-quraşdırma işlərinə başlanacaq. Eyni zamanda, Sədərək stansiyasından Türkiyə ilə dövlət sərhədinədək olan hissənin gələcəkdə Türkiyə tərəfindən icra edilən Qars-İğdır-Dilucu dəmir yolu ilə texniki və layihə baxımından uyğunlaşdırılması planlaşdırılır. Həmin dəmir yolu xətti üzrə Türkiyə tərəfindən layihələndirmə işləri aparılır.

Zəngəzur-Naxçıvan dəhlizinin istifadəsi bölgədə istehsal olunan məhsulların quru yolu ilə Türkiyə və Avropa bazarlarına ixracı üçün yeni imkanlar yaradacaq. Məhz bu məqsədlə həmin imkanlardan hərtərəfli istifadənin stimullaşdırılması üçün müxtəlif güzəştlərin tətbiqi əsas şərtlərdən biridir. Təşviq siyasəti biznes və ixracla məşğul olan iştirakçıların, habelə xarici ticarət seqmentlərinin Naxçıvanın əlverişli coğrafi mövqeyindən istifadə edilərək regionda istehsal olunan məhsulların xarici və ölkədaxili bazarlara çıxışının sürətlənməsini təmin edəcək. Bu, eyni zamanda, muxtar respublikada istehsal zəncirinin böyüməsinə və dayanıqlı məşğulluğun genişlənməsinə, regionun işgüzar əlaqələrinin möhkəmlənməsinə xidmət edəcək. Beləliklə, qeyd edilən istiqamət üzrə dəyişikliklər tranzit imkanlarından səmərəli istifadənin stimullaşdırılması, çevik əsaslandırmaya söykənən dəstək mexanizmlərinin formalaşdırılması baxımından əhəmiyyət daşıyır.

## Turizm potensialının artırılması üçün əlavə tədbirlər

Naxçıvan həm də əlverişli turizm və rekreasiya zonalarına malikdir. Burada tarix, mədəniyyət, dağlar, mineral sular, sağlamlıq turizmi, ekoturizm və qış turizmi üçün kifayət qədər zəngin baza mövcuddur. Dövlət başçısının sərəncamında nəzərdə tutulan dəyişikliklərdən biri də regionun turizm potensialının gücləndirilməsinə əhəmiyyətli təsir göstərəcək təşviqyönümlü addımların atılması ilə bağlıdır. Ancaq çoxminli turistləri cəlb etmək üçün bir sıra infrastrukturların yaradılmasına, xüsusilə də hotel və qonaq evlərinin sayının artırılmasına ehtiyac var. Cənab Prezident ötən ay muxtar respublikaya səfəri zamanı bu məsələyə toxunaraq bildirib ki, Naxçıvan zəngin tarixi abidələrə, təbiətə, təmiz havaya və turizm imkanlarına malik olsa da, keyfiyyətli hotellərin azlığı sektorun inkişafına mane olur, mehmanxanaların az olması turizmin inkişafını əngəlləyir. Bu problemi həll etmək məqsədilə Naxçıvan şəhərinin mərkəzində yeni beşulduzlu hotelin təməli qoyulub. Hotelin təxminən 2028-ci ildə hazır olması gözlənilir. Eləcə də bölgədə digər mehmanxana komplekslərinin yaradılması istiqamətində layihələr hazırlanır.

Bir sözlə, stimullaşdırıcı siyasət və dövlət dəstəyi tədbirləri bölgənin güclü potensialını böyük turist axınına çevirə biləcək xidmət infrastrukturunun yaradılmasını təmin edəcək.

# Mərkəzi Bank qaydaları dəyişdi

## Sistem əhəmiyyətli bankların qiymətləndirilməsi daha effektiv yanaşmalara əsaslanacaq

Mərkəzi Bank (MB) bankların sistem əhəmiyyətli bank kimi qiymətləndirilməsi meyarları, eləcə də bank kapitalının və kapital adekvatlığının hesablanması qaydalarına dəyişikliklər edib. Belə ki, bankların qiymətləndirilməsi zamanı istifadə olunan bəzi indikatorlar üzrə cari yanaşmanın təkmilləşdirilməsi və tətbiqi prosesinin optimallaşdırılması məqsədilə "Bankın sistem əhəmiyyətli bank kimi qiymətləndirilməsi Meyarları"nda və "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları" dəyişib. Dəyişikliklər bəzi indikatorlar üzrə hesablama yanaşmalarının təkmilləşdirilməsi, meyarların "Azərbaycan Respublikası Mərkəzi Bankının banklara riskəsaslı nəzarət üzrə Təlimatı"na əsasən banklara nəzarət tsikli ilə əlaqələndirilməsi, habelə sistem əhəmiyyətlilik kapital buferində artım və ya azalma baş verdiyi hallarda həmin dəyişikliklərin qüvvəyə minmə müddəti ilə bağlı yeni yanaşmanın müəyyənləşməsi ilə əlaqədardır. Yeniliyə əsasən, sistem əhəmiyyətli bankların siyahısı hər il sentyabrın 1-nə qədər Mərkəzi Bankın İdarə Heyətinin qərarı ilə təsdiq ediləcək.

### Qaydalar beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanıb

Qeyd edək ki, sistem əhəmiyyətli banklar qlobal və ya milli maliyyə sisteminin sabitliyi üçün həyati əhəmiyyət daşıyan bank və maliyyə institutlarıdır. Sistem əhəmiyyətli banklar bütün maliyyə sektorunun dinamikasını müəyyən edir və iqtisadiyyatın davamlılığı üçün onların idarə edilməsi və nəzarət mexanizmləri olduqca vacibdir. Çünki həmin bankların maliyyə dayanıqlığının pozulması sistem risklərinin aktivasiyasına gətirib çıxara bilər. Bu baxımdan, Mərkəzi Bankın əsas vəzifəsi hər hansı bankın sistem əhəmiyyətliliyini adekvat şəkildə müəyyən etməkdən ibarətdir. Bunun üçün potensial riskləri azaltmaq məqsədilə sistem əhəmiyyətli banklara münasibətdə düzgün uyğunlaşdırılmış tənzimləyici tələblərin tətbiqi mühüm əhəmiyyət kəsb edir. Yeni tənzimləyici tədbirlər də maliyyə sabitliyini təmin etmək və riskləri minimuma endirmək məqsədi daşıyır. Bu baxımdan yeni institusional islahat tədbirlərinə əsaslanan dəyişikliklər bir sıra Avropa ölkələrinin təcrübələri və digər beynəlxalq yanaşmalar nəzərə alınmaqla hazırlanıb.

Meyarlardakı dəyişikliyə əsasən "Maliyyə institutlarında yerləşdirilən aktivlər" indikatorunun yekun əhatə dairəsi daha da dəqiqləşdiriləcək bankların tənzimləyici qurumda yerləşdirdiyi aktivlərin nəzərə alınması, eləcə də "Ödəniş sistemləri vasitəsilə aparılan əməliyyatlar" indikatoru üzrə hesablamalar aparılarkən AZİPS sistemi üzrə bankların yalnız müştəri köçürmələri və banklararası ödəniş əməliyyatlarının nəzərə alınması müəyyən edilib.



Digər dəyişiklik "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları" ilə bağlıdır. Bu dəyişikliyə əsasən, bundan sonra sistem əhəmiyyətlilik indeksinin hesablanması nəticəsində bank sistem əhəmiyyətli bankların siyahısına daxil edildikdə və ya sistem əhəmiyyətli bankın daxil olduğu qrup artırıldıqda, "sistem əhəmiyyətli bank kapital buferi" üzrə yeni artırılmış tələb sistem əhəmiyyətli bankların siyahısının təsdiq edildiyi ildən sonrakı ilin yanvarın 1-dən qüvvəyə minəcək. Həmçinin sistem əhəmiyyətlilik indeksinin hesablanması nəticələrinə əsasən bankın sistem əhəmiyyətli bankların siyahısından çıxarılması və ya aid edildiyi sistem əhəmiyyətlilik qrupunun aşağı salınması yalnız ardıcıl 2 il üzrə aparılmış hesablamalar nəticəsində təsdiq edildiyi halda, "sistem əhəmiyyətli bank kapital buferi" üzrə azaldılmış tələb sistem əhəmiyyətli bankların siyahısının təsdiq edildiyi andan dərhal sonra qüvvəyə minəcək.

### Kapital adekvatlığı qaydaları dəyişir

Ümumilikdə, bank sektorunda tətbiq olunan yeni qaydalar sistem əhəmiyyətli bankların qiymətləndirilməsi zamanı daha effektiv yanaşmaların tətbiqinə və qiymətləndirmə prosesinin təkmilləşdirilməsinə xidmət edəcək.

Mərkəzi Bank, həmçinin sığorta sektorunda sistem əhəmiyyətli sığortaçıların qiymətləndirilməsi zamanı istifadə olunan yanaşmanın da təkmilləşdirilməsi qərar verib. Bu məqsədlə "Sığortaçının sistem əhəmiyyətli sığortaçı kimi qiymətləndirilməsi Meyarları"nda müvafiq dəyişikliklər edilib. Yeni çərçivə sığortaçıların maliyyə sisteminə mümkün təsir kanallarını daha dolğun əhatə etmək məqsədilə ölçü, şaxələnmə və əvəzolunmazlıq kateqoriyaları əsasında formalaşdırılaraq sistem əhəmiyyətliliyin üç səviyyə üzrə qiymətləndirilməsini nəzərdə tutur. Bunlar sığorta, maliyyə və ümumi iqtisadi münasibətlər üzrə səviyyələri müəyyənləşdirir. Yeni yanaşma sığortaçıların yalnız sektor daxilindəki rolunu deyil, eyni zamanda onların maliyyə bazarları və real iqtisadiyyatla qarşılıqlı əlaqələrini nəzərə almağa hesablanıb. Sistem əhəmiyyətlilik indeksi 15 faiz həddinə çatan və ya bunu keçən sığortaçılar sistem əhəmiyyətli sığortaçı kimi qiymətləndiriləcək.

### Sığortaçıların yeni qiymətləndirilmə meyarları

Dəyişikliklər Mərkəzi Bankın bank sektoru üzrə tətbiq etdiyi sistem əhəmiyyətlilik metodologiyası ilə uzlaşdırılmağa, sistem əhəmiyyətli maliyyə institutlarının müəyyən edilməsinə və vahid yanaşmanın formalaşdırılmasına xidmət edir. Qaydalara əsasən, sığorta sistemində qiymətləndirmə 3 kateqoriya - ölçü, şaxələnmə və əvəzolunmazlıq kateqoriyaları üzrə aparılacaq. Yəni əvvəlki metodologiyada mövcud olan mürəkkəblik kateqoriyası ləğv edilib. Bu, daha asan metodologiya hesab olunur. Eləcə də qiyməti kağızların dövriyyəsi göstəricisi ilk dəfə metodologiyaya daxil edilib. Bundan başqa, təkrarsığorta fəaliyyəti ilə əlaqədar sığortaçıların yalnız ölkə daxilindən qəbul etdikləri risklər üzrə hesablanmış təkrarsığorta haqlarının nəzərə alınması müəyyən edilib və bu göstəricinin çəkisi artırılıb. Bundan sonra müstəsna hal kimi təkrarsığortaçı fəaliyyəti ilə məşğul olan təkrarsığortaçılar üçün "sığorta predmetlərinin sayı" göstəricisi tətbiq edilməyəcək.

Sistem əhəmiyyətli sığortaçıların siyahısı hər il sentyabrın 1-dək Mərkəzi Bankın İdarə Heyətinin qərarı ilə təsdiq ediləcək.

**E.CƏFƏRLİ**

# ATƏT PA-nın rəhbərindən etiraf: Azərbaycan regionda sülhün bərqərar olunması üçün nadir bir model yaradıb

**Azərbaycan bu gün dünya ölkələri, o cümlədən nüfuzlu beynəlxalq təşkilatlarla ikitərəfli əlaqələr yaradıb və münasibətlərin yüksələn xətlə inkişafına xüsusi önəm verir. Qarşılıqlı maraqlar çərçivəsində tənzimlənən əməkdaşlıq həm də ölkəmizin dünyaya inteqrasiya prosesini sürətləndirir. Dövlətimizin xarici siyasətində beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq da mühüm yer tutur. Bu mənada, Azərbaycan beynəlxalq platformalarda aktiv iştirak edir.**

## ATƏT PA-nın prezidentinin ölkəmizə səfəri...



Ölkəmizin fəal əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlardan biri də ATƏT Parlament Assambleyasıdır. Yeri gəlmişkən, bugünlərdə ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons Sanpietro ölkəmizə səfər edib. Sentyabrın 3-də Prezident İlham Əliyev onu qəbul edib. Görüş zamanı qonaq ATƏT məkanında mövcud münaqişələrdən birinin həll olunduğunu və regionda davamlı sülhün təmin edildiyini deyərək, bu xüsusda dövlətimizin başçısını Azərbaycanla Ermənistan arasında sülh gündəliyində qazanılmış nailiyyətlər münasibətilə təbrik edib.

Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev 30 ilə yaxın müddətdə münaqişənin həllinə məsul olan ATƏT-in Minsk qrupu tərəfindən danışıqlar prosesində hər hansı bir nəticənin əldə edilmədiyini və BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrin yerinə yetirilmədiyini təəssüflə vurğulayıb. Prezident deyib ki, Azərbaycan özü münaqişəyə hərbi-siyasi vasitələrlə son qoyub, ərazi bütövlüyünü və suverenliyini təmin edib.

Söhbət zamanı Avropanın bəzi parlament təsisatlarından fərqli olaraq, Azərbaycanın ATƏT Parlament Assambleyası ilə təmaslarından və siyasi dialoqdan məmnunluq ifadə edilib. ATƏT Parlament Assambleyasının gündəliyində də bütün ATƏT məkanına balanslı münasibətin nümayiş etdirilməsinin önəmi vurğulanıb.

## ATƏT məkanında təhlükəsizlik çağırışları aktualdır

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov da ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons Sanpietro ilə görüşüb. Görüşdə Azərbaycan ilə ATƏT Parlament Assambleyası arasında əməkdaşlıq gündəliyində duran məsələlər, ATƏT məkanında mövcud təhlükəsizlik çağırışları, regionda vəziyyət, habelə Azərbaycan-Ermənistan sülh gündəliyi müzakirə olunub. C.Bayramov Azərbaycanın ATƏT Parlament Assambleyası ilə əməkdaşlığa əhəmiyyət verdiyini, parlamentlərarası dialoqun ATƏT məkanında qarşılıqlı anlaşmanın, etimadın və əməkdaşlığın təşviqində mühüm rol oynadığını qeyd edib. Bu çərçivədə Azərbaycan Milli Məclisinin ATƏT PA çərçivəsində fəaliyyəti, qarşılıqlı səfərlər və müxtəlif səviyyələrdə keçirilən görüşlərin əlaqələrin inkişafına verdiyi töhfə vurğulanıb.



Görüşdə Azərbaycanın regional və daha geniş beynəlxalq enerji təhlükəsizliyinə töhfəsi barədə də fikir mübadiləsi aparılıb. Azərbaycanın etibarlı enerji tərəfdaşı kimi Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində oynadığı rol, enerji mənbələrinin və marşrutlarının şaxələndirilməsi istiqamətində həyata keçirilən layihələr, habelə "yaşıl enerji" sahəsində təşəbbüslər barədə məlumat verilib.

Qeyd edək ki, hazırda dövlətlərarası münasibətlərin inkişafında və beynəlxalq platformalarda parlament diplomatiyasının rolu olduqca önəmlidir. Bu mənada, ölkəmizin parlament diplomatiyası müstəvisində yürütdüyü xarici siyasət prioritet təşkil edir. Son illərdə həyata keçirilən parlament diplomatiyası nəticəsində Azərbaycanın beynəlxalq münasibətlər sistemində və beynəlxalq platformalarda mövqeyi daha da möhkəmlənib. Artıq Azərbaycanda beynəlxalq və regional təşkilatların parlament şəbəkələrinin toplantılarının keçirilməsi ənənəsi formalaşıb. Son zamanlar parlament diplomatiyası çərçivəsində Azərbaycan bir çox beynəlxalq səviyyəli tədbirlərə və toplantılara ev sahibliyi edib. Eyni zamanda dünyanın ən müxtəlif ölkələrinin parlament nümayəndələri ölkəmizə səfər edir. Dünya ölkələrinin parlamentləri ilə sıx əməkdaşlıq və dostluq münasibətləri formalaşır. Təbii ki, bu cür əlaqələrin qurulması ölkələr arasında münasibətlərin inkişafına xidmət etməklə yanaşı, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, ölkəmizin beynəlxalq platformalarda dəstəklənməsində təsirli amildir.

Hazırda Milli Məclis bir çox nüfuzlu təşkilatların -Parlamentlərarası İttifaq, MDB PA, Asiya PA, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı, GUAM PA, TÜRKPA, NATO PA və s. işində fəal təmsil olunur. Məhz bu təşkilatlar çərçivəsində aparılan uğurlu əməkdaşlıq fəaliyyəti nəticəsində vaxtilə Ermənistanın apardığı işğalçılıq siyasətini ifşa edən qərarlar qəbul edilib. Azərbaycanın parlament diplomatiyasının beynəlxalq miqyasda nüfuz qazanmasının göstəricilərindən biri də Milli Məclisin ATƏT Parlament Assambleyasında uğurlu təmsilçiliyidir. Milli Məclis uzun illərdir bu təşkilatla əməkdaşlıq edir. Hazırda ölkəmiz ATƏT PA-da 6 millət vəkilindən ibarət nümayəndə heyəti ilə təmsil olunur. Nümayəndə heyətinə deputat Qaya Məmmədov rəhbərlik edir.

## Milli Məclisdə görüşlər keçirilib

Yeri gəlmişkən, sentyabrın 3-də ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons Sanpietro Milli Məclisdə də olub. Görüşdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycan ilə təşkilat arasındakı əməkdaşlıq, regionda sülhün və etimad mühitinin möhkəmləndirilməsi məsələlərinə toxunub. O, ATƏT PA-nın regionda fəaliyyəti barədə fikirlərini bölüşüb, Azərbaycanın regionda sülh və sabitliyin təşviqində nümunəvi ölkə olduğunu diqqətə çatdırıb.



ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons Sanpietro isə Azərbaycanın regiondakı geostrateji roluna, Avropa ilə iqtisadi-logistik əlaqələrə və parlament diplomatiyasının perspektivlərinə toxunaraq ölkəmizin geniş regionda qlobal iqtisadi layihələrin, logistikanın mərkəzində durduğunu və Avropanın etibarlı qaz təchizatçısı kimi mühüm rola malik olduğunu xüsusi vurğulayıb. O, Azərbaycanın Ermənistanla münasibətlərdə və regionda sülhün bərqərar olunmasında nadir bir model yaratdığını vurğulayıb.

ATƏT Parlament Assambleyasının prezidenti, həmçinin Milli Məclisin ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvləri ilə də görüşüb. Milli Məclisin deputatı və ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü Qaya Məmmədov Cənubi Qafqazda sülh prosesi, regional iqtisadi imkanlar və beynəlxalq dialoqun əhəmiyyəti barədə danışıb.

ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvləri Azay Quliyev, Sevinc Fətəliyeva və Tural Gəncəliyev Cənubi Qafqazda yaranan yeni geopolitik reallıqlar, ikitərəfli sülh danışıqları və regional nəqliyyat-logistika layihələrinə toxunublar, işğaldan azad edilmiş ərazilərdəki mina təhlükəsi və bunun insan həyatına vurduğu ağır fəsadlardan söz açıblar.

Pere Joan Pons Sanpietro regional sülh quruculuğu prosesini yüksək qiymətləndirərək, təşkilatın yeni geopolitik reallıqlara uyğunlaşmasının və regionda dayanıqlı sülhün dəstəklənməsinin vacibliyini qeyd edib.

***Nardar BAYRAMLI***

# Bakıda Avropa-Azərbaycan münasibətlərinə dair müzakirələr aparılıb

Bakıda Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi (BMTMM) və "LINKS Europe" Fondunun təşkilatçılığı ilə "Avropa-Azərbaycan münasibətləri: Tarixi təcrübənin dəyərləndirilməsi və gələcək əməkdaşlıq istiqamətləri" mövzusunda dəyirmi masa keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir çərçivəsində "LINKS Europe" Fondunun direktoru Dennis Sammut Avropa-Azərbaycan münasibətlərini təhlil etməyin və perspektivlərini müzakirə etməyin tam vaxtı olduğuna diqqət çəkib. O vurğulayıb ki, 30 il ərzində Qarabağ məsələsi təkcə siyasi gündəmi deyil, həm də insanların düşüncəsini zəbt edib. İndi isə Qarabağ Azərbaycana qayıdıb və Ermənistanla sülh perspektivi yaranıb. Bu, Azərbaycan-Ermənistan, Azərbaycan-Avropa İttifaqı münasibətlərində, eləcə də bütövlükdə Cənubi Qafqazda yeni eranın başlanğıcıdır.



Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev Cənubi Qafqazın geosiyasi mənzərəsinin əhəmiyyətli dərəcədə dəyişdiyini bildirib. Onun sözlərinə görə, bu dəyişiklik Azərbaycan-Ermənistan münaqişəsinin geridə qalması və bölgədə yaranan sülh mühiti ilə bağlıdır. "Lakin ehtiyatlı olmalıyıq. Çünki həm Avropa İttifaqından (Aİ) kənarda, həm də Aİ daxilində sülh prosesini pozmağa çalışan qüvvələr var. Sözügedən qüvvələrin geniş lobbiçilik şəbəkələri və "ictimai vəkillik" adlandırılan mexanizmləri mövcuddur. Müxtəlif Avropa təsisatlarında və bəzi hallarda media qurumlarında bu cür hallara hələ də qarşılaşırıq. Bəzi şəxslər humanitar məsələlər pərdəsi altında Qarabağ mövzusunu yenidən gündəmə gətirməyə çalışırlar. Halbuki hər iki ölkənin - Azərbaycanın və Ermənistanın liderləri davamlı sülhün və barışığın təmin olunması niyyətlərini dəfələrlə vurğulayıblar", - deyə İdarə Heyətinin sədri bildirib.

Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mariyana Kuyundziç Azərbaycanın Avropa İttifaqının mühüm və etibarlı enerji tərəfdaşına çevrildiyini xatırladaraq deyib: "Biz Azərbaycanın ən böyük ticarət tərəfdaşlarından biri olmaqdan qürur duyuruq. Son illər artan qarşılıqlı səfərlər isə münasibətlərin yalnız enerji sahəsi ilə məhdudlaşmadığını, eyni zamanda, bir çox sahədə əlaqələrin ardıcıl şəkildə inkişaf etdiyini göstərir. Ümumiyyətlə, Aİ-Azərbaycan münasibətlərini düşünərkən mənim ağlıma gələn söz "dinamik" oldu. Bu, kifayət qədər diplomatik ifadədir, lakin münasibətlərimizdə dinamizmin, həqiqətən də mövcud olduğunu düşünürəm. Bu dinamizm əməkdaşlığımızın yeni sahələrə doğru genişlənməsində və qarşılıqlı əlaqələrin intensivləşməsində özünü göstərir".



Xarici İşlər Nazirliyinin Xüsusi tapşırıqlar üzrə səfiri Elşad İsgəndərov isə qeyd edib ki, Cənubi Qafqazda artıq münaqişə yoxdur və hazırda sülh gündəliyi ön plandadır. Vətəndaş cəmiyyətləri arasında birbaşa təmasların və görüşlərin keçirilməsi də müsbət tendensiyadır. "Bu istiqamətdə təşkil olunan tədbirlərdən bir neçəsində iştirak etmək imkanım olub. Münaqişə ilə bağlı əvvəlki yanaşma öz yerini sülh gündəliyinə verir. Eyni zamanda, iqtisadi təmasların qurulması, nəqliyyat əlaqələrinin bərpası və iqtisadi münasibətlərin inkişaf etdirilməsi kimi konkret addımlar da sülh prosesinin mühüm tərkib hissəsidir. Bütün bunlar hər iki ölkənin liderlərinin siyasi iradəsi ilə dəstəklənir", - deyə XİN-in Xüsusi tapşırıqlar üzrə səfiri bildirib.

Daha sonra dəyirmi masa çərçivəsində panel müzakirə keçirilib.

Panel iştirakçıları Avropa-Azərbaycan münasibətlərinin inkişaf dinamikası, mövcud əməkdaşlıq istiqamətləri və qarşılıqlı əlaqələrin genişləndirilməsi imkanları barədə fikirlərini bölüşüblər. Eyni zamanda, dəyişən regional və qlobal geosiyasi reallıqlar fonunda Azərbaycan ilə Avropa arasında əməkdaşlığın perspektivləri, iqtisadi və siyasi əlaqələrin inkişafı, eləcə də sülh gündəliyinin yaratdığı yeni imkanlar müzakirə olunub.

# Qərb mediasının anti-Azərbaycan siyasəti...




## Ölkəmizlə bağlı dezinformasiyalara son qoyulmalıdır

Qlobal informasiya məkanında qeyri-adi transformasiyalar baş verir. Nəzərə alaq ki, müasir dünyada rəqəmsallaşdırma və virtual münasibətlər genişləndikcə, informasiya təhlükəsizliyinin rolu da artmaqdadır. İnformasiya təhlükəsizliyi milli təhlükəsizlik sisteminin ən mühüm istiqamətlərindən birinə çevrilib. Bu gün informasiya təhlükəsizliyinin kompleks təminatı həyata keçirilmədən milli suverenliyin qorunması, beynəlxalq terrorizm, kibercinayətkarlıq, kriminal iqtisadiyyatla mübarizə, şəxsi həyatın toxunulmazlığının təmin edilməsi kimi problemlərin uğurlu həlli mümkün deyil.

### Bəzi xarici dairələr ölkəmizin uğurlarına qısqanclıqla yanaşır

Azərbaycanda da informasiya təhlükəsizliyi, dövlət orqanlarının informasiya ehtiyatlarının qorunması, bu sahədə təhdidlərin qarşısının alınması, dövlət və qeyri-dövlət informasiya infrastruktur subyektlərində kibertəhlükəsizlik sahəsində risklərin qiymətləndirilməsi və idarə olunması ilə bağlı ciddi işlər aparılır. Milli informasiya ehtiyatlarının qorunması, informasiya sahəsində milli maraqların müdafiəsi dövlətimizin milli təhlükəsizlik siyasətinin istiqamətlərindən biridir. Bu siyasətin uğurla həyata keçirilməsi və informasiya təhlükəsizliyinin təmin edilməsi daim diqqət mərkəzindədir. Bununla belə, müəyyən xarici dairələr ölkəmizlə bağlı dezinformasiya yaymaq niyyətindən əl çəkmək istəmirlər.

Nəzərə alaq ki, ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycan Cənubi Qafqazda yeni reallıqlar yaratmaqla yanaşı, beynəlxalq müstəvidə mövqelərini əhəmiyyətli dərəcədə gücləndirir. Lakin ölkəmizin inkişafını istəməyən xarici qüvvələr Azərbaycanın imicinə zərbə vurmaq üçün dezinformasiyalar, yalan, böhtan və qərəzli məlumatlar yayırlar. Polşada yerləşən "Nexta" kanalı tərəfindən sentyabrın 2-də Azərbaycanın Goranboy rayonunun Nizami kəndi yaxınlığında baş vermiş yanğın hadisəsi ilə bağlı subyektiv mülahizələrə əsaslanan, məsələni dövlətlərarası siyasi münasibətlər fonunda təqdim etməyə çalışan və ictimai rəyi çaşdırmağa yönəlmiş məlumat yayılması da bunun göstəricisidir.

Məsələ ilə bağlı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi bəyanat verib. Bəyanatda bildirilir ki, baş verənlər vahid mərkəzdən idarə olunan hibrid informasiya kampaniyasının tərkib hissəsidir. Özünün informasiya mühitindən kənar qüvvələri daim hibrid müharibədə ittiham edən Qərb mediasının özü Azərbaycana qarşı təşkil olunmuş dezinformasiya kampaniyası aparır. Bu fakt bir daha göstərir ki, regionda qonşu dövlətlər arasında münasibətlərin normallaşması, sabitliyin və firavanlığın möhkəmlənməsi müəyyən dairələrin maraqlarına cavab vermədiyindən, ölkəmizin informasiya məkanını çirkləndirmək və cəmiyyətdə süni təşviş yaratmaq məqsədi daşıyan klassik dezinformasiya halları intensivləşib.

### MEDİA: Lazımi tədbirlər görməkdə davam edəcəyik

Bəyanatda, həmçinin vurğulanır: "Ümumi informasiya mühitinin monitorinqi və təhlili göstərir ki, son dövrlər bir sıra Qərb media resurslarında Azərbaycana qarşı həqiqətə uyğun olmayan məlumatların yayılması kampaniyası müşahidə olunur. Xüsusilə, Böyük Britaniyanın "The Independent", "The Guardian" qəzetlərində və "BBC" teleradio və yayım şirkətində, ABŞ-nin CNN telekanalında, Fransanın "Le Monde" qəzetində, Polşanın TVP telekanalı və digər resurslarda yayılan materiallardakı aşkar birtərəfli yanaşma və əsassız mülahizələr Azərbaycanın beynəlxalq imicini hədəf alan informasiya hücumunun tərkib hissəsidir. Bu qəbildən olan fərziyyə və iddiaların yayılması informasiya manipulyasiyasının açıq təzahürü kimi qiymətləndirilməlidir".

Medianın İnkişafı Agentliyi ölkəmizin suverenliyinə, daxili və xarici siyasətinə, eləcə də beynəlxalq nüfuzuna kölgə salmaq məqsədi daşıyan bu kimi halların araşdırılması və dezinformasiya cəhdlərinin qarşısının alınması istiqamətində lazımi tədbirlər görməkdə davam edəcəyini bəyan edib.

Xatırladaq ki, bir müddət öncə - iyunun 5-də "CNN World"un yaydığı məqalədə isə guya Azərbaycan ərazisinin İrana qarşı hərbi və ya kəşfiyyat əməliyyatları üçün istifadə edilməsi, İsrailə məxsus qüvvələrin Azərbaycan ərazisində yerləşdirilməsi barədə iddia olunurdu. Həmin iddialar Azərbaycan tərəfindən təkzib edilib və bu mövqe CNN-in sorğusuna cavab olaraq əvvəlcədən redaksiyaya rəsmi qaydada təqdim edilib. Amma heç bir tutarlı sübut ortaya qoyulmadan, anonim mənbələrə əsaslanan və Azərbaycanın rəsmi mövqeyini nəzərə almayan iddiaların yayımlanması jurnalistikanın obyektivlik, qərəzsizlik və peşəkar etika prinsipləri ilə ziddiyyət təşkil edir.

Medianın İnkişafı Agentliyi bu məsələ haqqında da bəyanatla çıxış edərək bildirmişdi ki, CNN-in yaydığı dezinformasiya Azərbaycana və bütünlükdə regional təhlükəsizliyə qarşı yönəlmiş siyasi təxribatdır və bu məlumatın yayılması beynəlxalq ictimaiyyətdə çaşqınlıq yaratmaqla yanaşı, regional sabitliyə və dövlətlərarası münasibətlərə zərbə vurmağa və regionda gərginlik yaratmağa hesablanıb. Qeyd edilib ki, dəfələrlə ən yüksək rəsmi səviyyədə bəyan edilib ki, Azərbaycan Respublikası ərazisindən heç bir halda İran İslam Respublikasına qarşı istifadə olunmayıb və bu qəbildən olan uydurma, qərəzli məlumatlar kobud informasiya manipulyasiyasıdır. MEDİA regional təhlükəsizliyi təhdid edən, media etikası və jurnalist peşəkarlığı prinsiplərinə zidd formada məlumat yayaraq ictimai rəyi çaşdırmağa çalışan CNN-dən təkzib verməsini və Azərbaycandan üzr istəməsini tələb etmişdi.

### "The Guardian"a etiraz




"İnsan Hüquqlarının Təşviqi Mərkəzi" İctimai Birliyinin İdarə Heyətinin sədri, hüquq elmləri doktoru, professor Əmir Əliyev "The Guardian" qəzetinə Aleksis Pazumianın "Black Garden" sənədli filmi ilə bağlı dərc olunan materiala cavab olaraq məktub ünvanlayıb. Məktubun müəllifi qeyd edib ki, Qarabağ münaqişəsinin tarixi müzakirə edilərkən azərbaycanlıların yaşadıqları hadisələr diqqətdən kənarda qalmamalıdır və didərgin düşmüş insanların, eləcə də Xocalı qətliamının qurbanları və sağ qalanların səsləri də eşidilməlidir.

O, "The Guardian"dan bu səslərə yer ayırmağa və dərc etdiyi materialda çatışmayan fakt və baxışları nəzərə almağa çağırıb. Əmir Əliyevin sözlərinə görə, "The Guardian"ın "Black Garden" sənədli filmi ilə bağlı materialında bir sıra mühüm məqamlar, o cümlədən Ermənistanın beynəlxalq səviyyədə Azərbaycanın ərazisi kimi tanınan torpaqları işğal etməsi və bir milyondan çox azərbaycanlının didərgin düşməsi barədə məlumatlar yer almayıb.

"Əsas narahatlığımız ondan ibarətdir ki, 2026-cı il avqustun 31-də "The Guardian"ın saytında dərc olunan resenziya filmin müzakirəsi ilə kifayətlənmir, eyni zamanda, münaqişə ilə bağlı qəzetin öz yanaşmasını təqdim edir. Azərbaycanın Qarabağ bölgəsini "Dağlıq Qarabağ" adlandıran resenziyada münaqişə "onilliklər boyu davam edən ərazi mübahisəsi" kimi təqdim olunur və "əsasən ermənilərdən ibarət əhalinin Azərbaycan Ordusunun saysız-hesabsız hərbi kampaniyalarına qarşı mübarizə apardığı bildirilir", - deyə Əmir Əliyev qeyd edib.

O vurğulayıb ki, film bir tərəfin baxışını təqdim edir. Böyük beynəlxalq media qurumu tarixi konteksti öz adından təqdim edirsə, bu məlumatlar dəqiq olmalıdır.

Ə.Əliyev məktubunda Qarabağın beynəlxalq səviyyədə Azərbaycanın tərkib hissəsi kimi tanındığını və bu mövqenin dəyişmədiyini bildirib. Professor Avropa İnsan Hüquqları Məhkəməsinin 2015-ci ildə "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə qəbul etdiyi qərara istinad edərək, məhkəmənin Ermənistanın sözügedən ərazilər üzərində səmərəli nəzarət həyata keçirdiyini müəyyənləşdirdiyini qeyd edib. O, həmçinin BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnamənin Azərbaycanın ərazi bütövlüyünü təsdiqlədiyini və işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb etdiyini vurğulayıb.

Bildirib ki, "The Guardian"dan məktubu qəzetin "Letters" bölməsində dərc etmək, didərginlik və zorakılıq yaşamış azərbaycanlıların, o cümlədən Xocalı faciəsinin qurbanlarına və sağ qalanların mövqeyinə də yer vermək xahiş olunub. Əmir Əliyev qəzetə, həmçinin hər iki tərəfin mövqeyinin təqdim olunması üçün azərbaycanlı rejissorların faktlara əsaslanan sənədli filmlərinə də diqqət yetirməyi təklif edib.

"Biz sənədləşdirilmiş araşdırmalar, eləcə də birinci əldən məlumat təqdim etməyə hazırıq. Azərbaycan və Ermənistan barışıq istiqamətində çalışdığı bir vaxtda balanslı yanaşma xüsusilə vacibdir", - deyə hüquq elmləri doktoru bildirib.

*Nardar BAYRAMLI*

### CNN-in məhkəmə taleyini digərləri də yaşaya bilər

Material dərc edildikdən sonra Azərbaycan tərəfi CNN-dən sözügedən iddiaların təkzib edilməsini və materiala düzəliş verilməsini rəsmən tələb edib. Məsələ ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi tərəfindən də müvafiq açıqlama verilib. İyunun 6-da, 23-də və iyulun 2-də Azərbaycan tərəfi CNN-ə rəsmi təkrar məktublar göndərərək materialda yer alan iddiaların təkzib edilməsini və düzəlişlərin aparılmasını tələb edib. CNN Azərbaycanın haqlı tələblərini araşdırmağa söz versə də, bu müddət ərzində heç bir əməli tədbir görməyib və irəli sürdüyü saxta iddiaları təkzib etməyib.

Belə olan təqdirdə Azərbaycan CNN-ə qarşı ABŞ-ın Delaver ştatı üzrə federal məhkəməsində (media qurumunun rəsmi təsis edildiyi ştatda) iddia qaldırıb və iddia tələbi 17 avqustda rəsmən məhkəməyə təqdim edilib.

Xatırladaq ki, CNN-nin məqaləsinin müəlliflərindən biri olan Tim Listerin əvvəlki materiallarında da Azərbaycanla bağlı birtərəfli yanaşmalar müşahidə edilib. Belə ki, 2020-ci il Vətən müharibəsi və 2023-cü ildə antiterror tədbirləri zamanı da onun müəllifliyi ilə Azərbaycana qarşı qərəzli iddialarla dolu olan məqalələr dərc edilib. Ölkəmizlə bağlı dezinformasiya yayan həmin media qurumu məhkəmə qarşısında cavab verməli olacaq. Eyni taleyi Polşada yerləşən "Nexta" kanalı da yaşaya bilər. Ona görə də, xarici media qurumları Azərbaycana qarşı qərəzli kampaniyalara son qoymalıdır.

# Blogerlər vergiyə cəlb olunur

Son illərdə sosial şəbəkələr və digər rəqəmsal platformalar üzərindən reklam, marketinq, məhsul və xidmətlərin təşviqi, məzmun istehsalı, canlı yayımlar, eləcə də müxtəlif əməkdaşlıq layihələri vasitəsilə gəlir əldə edən şəxslərin sayı əhəmiyyətli dərəcədə artıb. Bununla yanaşı, iqtisadi fəaliyyət növlərinin mövcud təsnifatında bu sahənin ayrıca əks olunmaması həmin şəxslərin fəaliyyətinin uçota alınmasını və statistik qiymətləndirilməsini çətinləşdirib. Bu amilləri nəzərə alan Dövlət Vergi Xidməti (DVX) rəqəmsal iqtisadiyyatın inkişafı və sosial media platformaları üzərindən gəlir əldə edən şəxslərin fəaliyyətinin tənzimlənməsi çərçivəsində tanınması, eləcə də uçotun şəffaflaşdırılması istiqamətində rəqəmsal vergi inzibatçılığının təkmilləşdirilməsini qərara alıb. Yeni inzibatçılıq tədbirləri sayəsində blogerlərin və infulenserlərin sosial media platformalarından əldə etdiyi gəlirlərin uçotu aparılacaq.

### Mülki-hüquqi müqavilə əsasında gəlir

Qeyd edək ki, influenser sosial media platformalarında ("Instagram", "TikTok", "YouTube", "Facebook", "X" və s.) kifayət qədər izləyicisi olan, ictimai rəyə təsir göstərən və məhsul, xidmət və ya ideyaların tanıtımında iştirak edən şəxslər hesab edilir. Onlar sosial media kontenti yaradaraq canlı yayımlardan gəlirlər əldə edir. Eyni zamanda, tanınmış brendlərlə əməkdaşlıq edərək onları reklam edir və sponsorlu paylaşımları yerləşdirilər. Həmçinin bu şəxslər "livestream" vasitəsilə gəlir əldə edirlər, bu əsas etibarilə "Twitch" və "TikTok Live" üzərindən "donate", abunəlik və ya hədiyyə yolu ilə qazanılan gəlirlərdir. Bundan başqa, son dövrlərdə ən çox gəlir gətirən sahə kimi platformaların "Patreon" və "YouTube Membership" kimi seqmentləridir.

Ancaq bunun müqabilində influenser və blogerlər heç bir vergi ödəmirlər. Beynəlxalq praktikada həmin fəaliyyət sahəsi vergitutma obyekti sayılır və demək olar ki, bütün ölkələr influenserləri qanunamüvafiq qaydada vergiyə cəlb edir. Azərbaycanın vergi qanunvericiliyində də məsələnin hüquqi çərçivəsi mövcuddur, influenserlər ayrıca bir vergi kateqoriyası kimi tanınmasalar da, gəlir əldə edən fiziki şəxslər və ya fərdi sahibkarlar kimi vergi ödəyicisi hesab olunurlar.

Əslində, həmin şəxslərin hər biri vergi qeydiyyatına alınmalıdır. Təhlillər göstərir ki, həmin şəxslər vergi orqanında qeydiyyatda deyillər və gəlirlərini adətən mülki-hüquqi müqavilə əsasında əldə edirlər (məsələn, bir brendlə və ya reklam agentliyi ilə müqavilə bağlayaraq). Məhsulun reklam və ya tövsiyə xarakterli olması blogerin bu fəaliyyət üzrə davamiyyətinə görə təhlil edilir. Əgər bloger eyni və ya eynicinsli məhsulları və ya xidmətləri mütəmadi olaraq tövsiyə edirsə, bu iş artıq reklam xarakterli qəbul olunur və vergiyə cəlb olunur və bu zaman vergi tutulması prosesi xidməti alan tərəfindən həyata keçirilir. Yəni influenserə ödəniləcək məbləğdən ödəmə mənbəyində vergi məbləği tutulur, dövlət büdcəsinə ödənilir. Bu halda həmin şəxsin ayrıca vergi uçotuna alınaraq vergi bəyannaməsi təqdim etmək öhdəliyi yaranmır.




### Vergi Məcəlləsi və "Sosial sığorta haqqında" qanun nə deyir?

Vergi Məcəlləsinin 101.1-3-cü maddəsinə əsasən, fiziki şəxslərin bu Məcəllənin 150.1.1-ci və 150.1.2-ci maddələrinə uyğun olaraq ödəmə mənbəyində vergiyə cəlb olunan gəlirlərindən vergi bu Məcəllənin 101.1-ci və 101.1-1-ci maddələrində nəzərdə tutulan dərəcələrə müvafiq qaydada hesablanır və aidiyyəti üzrə ödənilir.

Həmin Məcəllənin 150.1.3-cü və 150.1.7-ci (vergi orqanlarında uçota alınmayan fiziki şəxslərin göstərdiyi xidmətlərə (işlərə) münasibətdə) maddələri tətbiq edilərkən gəlir vergisi bu Məcəllənin 101.1-ci maddəsində nəzərdə tutulmuş verginin dərəcəsi müvafiq olaraq pensiya alan və xidmət göstərən şəxsin gəlirlərinə tətbiq edilməklə hesablanır.

Məcəllənin 101.1-ci maddəsinin tələbinə görə, blogerlərin gəliri 2.500 manatadək olduqda 14 faiz, 2.500 manatdan çox olduqda 350 manat + 2.500 manatdan çox olan məbləğin 25 faizi həcmində vergi ödəməlidirlər. Bundan başqa, "Sosial sığorta haqqında" qanunun 14.5.2-ci maddəsinə əsasən, gəlirlərin 25 faizi miqdarında məcburi dövlət sosial sığorta haqqı tutulur. Həmçinin "Tibbi sığorta haqqında" Qanunun 15-10.1.4-cü maddəsi ilə gəlirin 8.000 manatadək olan hissəsinin 2 faizi, 8.000 manatdan yuxarı olan hissəsinin 1 faizi həcmində icbari tibbi sığorta haqqı tutulur.

### "Rəqəmsal platforma təsirçisi" vergitutma mexanizmini müəyyən edir

Qeyd edilən sahədə vergi inzibatçılığının təkmilləşdirilməsi çərçivəsində artıq Vergi Xidməti tərəfindən uçot məlumat bazasında fəaliyyət növləri üzrə təsnifata "Rəqəmsal platforma təsirçisi" (kod 6312003) adlı yeni fəaliyyət növü əlavə edilib ki, həmin təsnifat vergitutma mexanizmini müəyyənləşdirir. Qaydalar sosial media və digər rəqəmsal platformalar vasitəsilə gəlir əldə edən şəxslərin (blogerlərin və infulenserlərin) fəaliyyətinin daha dəqiq və şəffaf rəsmiləşdirilməsinə, onların iqtisadi fəaliyyətinin ayrıca uçota alınmasına və statistik məlumatların daha dolğun formalaşdırılmasına imkan yaradır.

Dövlət Vergi Xidməti blogerlər və infulenserlərə, bu sahədə fəaliyyət göstərən digər vergi ödəyicilərinə fəaliyyətlərini qanunvericiliyin tələblərinə uyğun şəkildə rəsmiləşdirməyi və qeydiyyat zamanı yeni fəaliyyət kodunu seçməyi tövsiyə edib.

*E.CƏFƏRLİ*

# İRƏVANDA AZƏRBAYCAN TƏHSİL TARİXİNDƏ İZ QOYAN FƏDAKAR MAARİFÇİ



İrəvanda Azərbaycan maarifçilik mühiti olduqca uğurlu, həm də zəngin bir yol keçmişdir. Bu yolu işıqlandıran, daha da rövnəqləndirən maarifçilər, şəxsiyyətlər çox olub. Hər biri Azərbaycan maarifçiliyinə və təhsil sisteminə, cəmiyyətin intellektual dirçəlişinə özünəməxsus şəkildə böyük töhfə vermişlər. Bu mənada, İrəvanda Azərbaycan təhsil tarixində silinməz iz qoyan, unudulmaz müəllim simalardan biri də Heydər Ramazan oğlu Əliyev olmuşdur. Pedaqoq, jurnalist, ictimai xadim Heydər Ramazan oğlu Əliyev 1912-ci ildə İrəvan quberniyasının Qəmərli rayonunun Məsimli kəndində anadan olmuşdur. 1918-ci il hadisələrində hər iki valideynini itirən Heydər Əliyev əvvəlcə əmisinin himayəsində yaşamışdır. 1927-ci ildə ibtidai məktəbi, 1929-cu ildə isə Qəmərli natamam orta məktəbini bitirmişdir. 1930-1931-ci illərdə İrəvan Azərbaycanlı Pedaqoji məktəbinin nəzdində fəaliyyət göstərən bir illik müəllimlik kursunu bitirmişdir. 1931-1932-ci illərdə Vedi rayonunun Avşar kənd 7 illik məktəbində direktor və müəllim işləmişdir.



*Cəlal Allahverdiyev,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

Heydər müəllimin məktəblərin tədris-təchizat məsələlərinin yaxşılaşdırılması işinə ciddi yanaşması, şagird kontingentinin məktəbə cəlb edilməsinə böyük səy göstərməsi və digər təşəbbüsləri əsl fədakarlıq nümunəsi idi. 1932-ci ildə İrəvan Kooperativ Texnikumunun Türk bölməsinin hesabdarlıq ixtisasına daxil olmuş və 1935-ci ildə təhsilini uğurla başa vurmuşdur. 1935-ci ilin iyun ayından 1936-cı ilin iyun ayına kimi Qarabağlar rayonunun Kolanı kəndində hesabdar və eyni zamanda həmin kəndin 7 illik məktəbində müəllim işləmişdir. Heydər Əliyev İrəvan qəzasında mədəni mühitin tanınmış simalarından, müəllimlərindən biri idi. O dövrdə ucqar kəndlərə gedən yollar yox dərəcəsində idi, hətta nəqliyyat vasitələri belə yox idi. Heydər müəllim də digər müəllim yoldaşları kimi ayaqlarına çarıq geyinib uzaq kəndlərə piyada gedərdi. Belə faktlar həm də fədakarlıq göstərmiş müəllimlərin real həyat mənzərəsini əks etdirir.

O maarifçi fəaliyyəti ilə yanaşı, həm də mətbuat sahəsində də xidmətləri ilə tanınmışdır. 1936-cı ildə Ermənistan Xalq Maarif Nazirliyi attestasiya komissiyası qarşısında imtahan verib ibtidai məktəb müəllimi hüququnu qazanmışdı. Uzun illərdir ki, İrəvan ədəbi-mədəni, ictimai mühiti ilə bağlı araşdırmalar aparıram. İrəvanda 1924-cü ildən Azərbaycan dilində "Zəngi", 1929-cu ildən isə "Qızıl şəfəq" adı ilə çıxan bu mərkəzi mətbuat orqanlarını vərəqlədikcə ən çox qarşılaşdığım imzalardan biri də Heydər Əliyevin imzasıdır. Bu mətbuat orqanlarının səhifələrində onun çap olunan yazılarında dövrün maarifçilik və quruculuq proseslərinə obyektiv münasibət bildirmək ən başlıca amalı olubdur. Həmin dövrdə belə yazıları yazmağın özü də çətin idi. 1936-cı ilin iyul ayından 1937-ci ilin sentyabr ayına kimi Qarabağlar (Vedi) rayonunun Qaraxaç kəndində hesabdar və həmin kəndin məktəbində müəllim işləmişdir. 1937-ci ildə Heydər Əliyev Maarif Nazirliyi tərəfindən Qəmərli rayon tam orta məktəbinə tədris hissə müdiri vəzifəsinə təyin edilir. 1941-ci ilədək həmin məktəbdə müəllim və tədris hissə müdiri vəzifəsində çalışır. Heydər Əliyev yaxşı müəllim, pedaqoq olmaqla yanaşı, İrəvan qəzasının ictimai-mədəni həyatında da fəal iştirak etmişdir. 1937-ci ildən 1941-ci ilədək maarif şöbəsində azərbaycanlı şagirdlərlə iş üzrə metodist və eyni zamanda maarif üzrə məktəblər müfəttişi vəzifəsində işləmişdir. 1940-cı ildə səmərəli pedaqoji fəaliyyətinə görə Əməkdar müəllim adına layiq görülmüşdür. 1940-cı ildə İrəvan Azərbaycanlı Qiyabi Pedaqoji İnstitutunun coğrafiya fakültəsinə daxil olmuşdur. 1941-ci ildə ikinci kursda təhsil alarkən könüllü olaraq Böyük Vətən müharibəsinə yollanır. 1942-ci ildə müharibədə yaralanmış və ordudan təxris edilmişdir. 1942-ci ildən 1943-cü ilin sentyabr ayına kimi Qəmərli rayonunun Çiləxanlı kənd natamam orta məktəbində direktor və müəllim işləmişdir. İrəvan bölgəsində Heydər müəllim, Bilas Şadlinski, Əli Fərəcov, Həqiqə Abbasova, Fatma Qədimova, Əsəd Məmmədov və digər maarif xadimləri cəmiyyətin mənəvi memarlığını öz çiyinlərində daşımışlar. 1943-cü ilin sentyabr ayından 1947-ci ilin sentyabr ayına kimi Qəmərli Rayon Partiya Komitəsində təlimatçı vəzifəsində çalışmışdır. Heydər müəllim ömrünün böyük bir dövrünü müəllimliyə həsr etmiş, yorulmaq bilmədən çalışmışdır. 1945-ci ildə "Qafqazın müdafiəsinə görə", 1946-cı ildə "Almaniya üzərində qələbə" və "Rəşadətli əməyə görə" medalları ilə təltif olunmuşdur. 1947-ci ilin sentyabr ayından 1949-cu ilin avqust ayına kimi Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi yanında ikiillik Respublika partiya məktəbinin müdavimi olmuşdur.

Heydər müəllim rus və erməni dillərini gözəl bilirdi. O 1948-1953-cü illər köçürülməsi zamanı 1949-cu ilin mart ayında Azərbaycanın Ağstafa rayonuna deportasiya edilir. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 2 sentyabr 1949-cu il tarixli Büro iclasının qərarına əsasən, Ağstafa rayon partiya komitəsinin təbliğat və təşviqat şöbəsinin müdiri müavini - partiya kabinetinin müdiri vəzifəsinə təyin edilir. 26 iyun 1951-ci ildə həmin vəzifəsindən azad edilərək 13 aprel 1951-ci il tarixində Ağstafa rayon partiya komitəsinin təbliğat və təşviqat şöbəsinin müdiri vəzifəsinə təyin edilir. 17 fevral 1960-cı ilə kimi həmin vəzifədə işləyir. 1960-cı ilin may ayından Qazax rayonunun "Lenin" adına kolxoz idarə heyətinin sədri vəzifəsində çalışır.

İşıqlı insanlar ölmür, çünki onların fiziki yoxluğundan sonra geridə qoyduqları xeyirxah əməllər - xidmətləri onları əbədiyaşar edir. Onlar elə bir miras qoyurlar ki, bu irs nəsillərdən-nəsillərə ötürülür. Bir həqiqət də məlumdur ki, hər kəs ehtiramla xatırlanmır, hörmətlə anılmır. Bu gün Heydər müəllimi də ehtiramla xatırladan, unudulmaz edən onun qoyub getdiyi irsdir.

# Ukrayna və Moldovanın Aİ-yə üzvlüyü yolunda "qırmızı işıq"

## Budapeşt hər iki ölkənin Aİ-yə üzvlük danışıqlarının növbəti mərhələlərinin irəliləməsinə veto qoyub

Ukraynanın və Moldovanın sürətləndirilmiş qaydada Avropa İttifaqına (Aİ) üzv qəbul edilmələri ətrafında növbəti dəfə gərginlik yaranıb. Söhbət Macarıstanın yenidən prosesə etiraz etməsindən gedir. Baş naziri Peter Macyar Avropa Şurasının sədri Antonio Koşta ilə görüşündə bildirib ki, Macarıstan heç bir ölkənin Avropa İttifaqına sürətləndirilmiş qaydada üzv qəbul edilməsini dəstəkləməyəcək.

Baş nazirin açıqlaması Macarıstanın sentyabrın 2-də Ukrayna və Moldovanın Aİ-yə üzvlüyü ilə bağlı danışıqlar prosesini növbəti dəfə bloklamasından sonra səslənib. Məlumata görə, Budapeşt Ukrayna və Moldovanın Aİ-yə üzvlük danışıqlarının növbəti mərhələlərinin irəliləməsinə mane olub.

## Aİ-yə üzvlük çıxılmazlığı - geosiyasi amillər önə keçir

Avropa İttifaqına üzv olmaq üçün bu istəkdə bulunan dövlətlər Kopenhagen meyarlarına cavab verməli və çoxmərhələli rəsmi prosesdən keçməlidirlər. Kopenhagen meyarları siyasi sahədə stabil demokratiya, qanunun aliliyi, insan hüquqları və azlıqların qorunması kimi prinsipləri özündə ehtiva edir. Namizəd ölkələr qeyd olunan istiqamətlərdə islahatlar aparmaqla, qanunvericilik bazasını möhkəmlətməklə özlərini Aİ standartlarına uyğunlaşdırmalıdırlar. Həmçinin Aİ-yə üzvlük arzusunda olan ölkələr yüksək səviyyəli bazar iqtisadiyyatı modelinə keçid etməli və istehsal imkanları ilə Aİ daxilindəki rəqabətə tab gətirməlidirlər. Eyni zamanda, ölkələr Aİ-nin bütün qanunlarını, qaydalarını və standartlarını qəbul etmək məcburiyyətindədirlər.

Üzvlüyə gedən yol Avropa İttifaqı Şurasına rəsmi müraciətlə başlayır. Avropa Komissiyasının rəyindən sonra bütün Aİ ölkələrinin yekdil razılığı ilə ölkəyə "namizəd" statusu verilir. Bundan sonra danışıqlar prosesi başlayır. Aİ qanunvericiliyi 35 müxtəlif sahəyə (ətraflı mühit, məhkəmə, kənd təsərrüfatı və s.) bölünür. Namizəd ölkə öz qanunlarını bu sahələr üzrə Aİ standartlarına uyğunlaşdırmalıdır. Danışıqlar bitdikdən sonra Üzvlük Müqaviləsi hazırlanır. Bu müqavilə Avropa Parlamenti, Avropa Komissiyası, bütün mövcud Aİ üzvləri və namizəd ölkə tərəfindən ratifikasiya olunmalıdır.

Lakin danışıqların başlanması heç də bütün hallarda Aİ-yə üzvlüyü təmin etmir. Məsələn, 2027-ci ildə Aİ-yə qoşula biləcək Monteneqro 14 ildir danışıq aparır. Qoşulmağa şansı olmayan Türkiyə Avropa İttifaqına namizəd ölkə statusunu 1999-cu ildə alıb və üzvlük danışıqlarına rəsmən 2005-ci ildə başlayıb.



Proses uzandıqca uzanır və üfüqdə heç bir parıltı görünmür.

Bir sıra ölkələrin təcrübəsi göstərir ki, Aİ sıralarında yer almaq getdikcə daha çox dərəcədə siyasi alətə çevrilir. Yəni proses heç də bütün hallarda Kopenhagen meyarlarına uyğun aparılmır. Brüsselin geosiyasi və geoiqtisadi maraqlarından asılı olaraq hansısa bir ölkənin qarşısında "yaşıl", digərinin qarşısında isə "qırmızı" işıq yandırılır. Qardaş Türkiyənin nümunəsi buna misaldır. Bu gün Türkiyənin həm siyasi, həm də iqtisadi sahədə yaratdığı reallıqlar bir sıra Avropa dövlətlərində olduğundan qat-qat üstündür. Ancaq qeyd etdiyimiz kimi, danışıqlar prosesi tamamlanmır. Səbəb də odur ki, Türkiyə fərqli inanca malik dövlətdir.

Son vaxtlarda isə yenə də geosiyasi amillərə görə qonşu Gürcüstanla Aİ arasında ciddi ixtilaflar yarandı. Belə ki, Gürcüstan parlamentində qəbul olunan bir sıra qanunlar Brüsseli qane etmədi. Həmin qanunlar Gürcüstanın milli mənafeyi naminə qəbul olunmuşdu. Brüssel isə bunu rəsmi Tbilisinin Rusiyanın təsir dairəsinə keçməsi, Avropadan uzaqlaşması anlamında təqdim etdi və beləliklə də, danışıqlar prosesi pozuldu. Hazırda oxşar proseslər qonşu Ermənistanda izlənilir.

## Budapeştin şərtləri nədən qaynaqlanır?

Macarıstan Aİ-yə üzvlük danışıqlarının əsas mərhələsi olan ikinci (vahid daxili bazar) və üçüncü (rəqabətqabiliyyətlilik və sosial siyasət) danışıqlar klasterlərinin açılmasını təsdiqləməkdən imtina edib. Halbuki Aİ-yə üzvlük prosesində yekdillik prinsipi var. Yəni Aİ qaydalarına görə, danışıqların hər bir mərhələsinin və fəslinin açılması üçün 27 üzv dövlətin hamısının yekdil səsi (razılığı) tələb olunur. Macarıstan veto hüququndan istifadə edərək prosesi tamamilə dayandırıb.

Macarıstan hakimiyyəti danışıqlar prosesinin bərpası üçün 2 şərt irəli sürür. Bunlar aşağıdakılardır:

- Ukrayna hakimiyyəti etnik macarların hüquqları ilə bağlı ikitərəfli razılaşmanı yerinə yetirməlidir,
- Budapeşt Aİ rəhbərliyindən Macarıstana tətbiq olunan gündəlik 1 milyon avro məbləğində cərimənin ləğvi məsələsinin ən qısa zamanda həllini gözləyir.

Söhbət Ukraynanın Zakarpatye ərazisində kompakt yaşayan 100 minlik macar etnik azlığının hüquqlarının qorunmasından gedir. Bununla bağlı uzun illər ərzində aparılan danışıqlardan sonra 2026-cı ilin iyun ayında müvafiq saziş imzalanıb. Sənəddə əsasən macar azlığının dil, təhsil, mədəni və siyasi hüquqları bərpa olunur və genişləndirilir. Ukrayna rəsmi olaraq bu razılaşmadakı bəndləri öz milli qanunvericiliyinə daxil etmək və Avropa İttifaqına üzvlük üzrə fəaliyyət planına inteqrasiya etmək öhdəliyi götürüb. "Bununla da bizim Zakarpatyedən olan soydaşlarımız əvvəlkindən xeyli dərəcədə daha geniş təhsil, mədəniyyət, dil və siyasi hüquqlara malik olacaqlar. Bu öhdəliklər həmçinin Ukraynanın Avropa İttifaqına inteqrasiyası çərçivəsindəki fəaliyyət planında da öz əksini tapacaq. Əgər bu baş verərsə, Macarıstan hökuməti Ukraynaya münasibətdə (Aİ-yə daxil olmaq barədə - red.) ilk danışıqlar klasterinin açılmasına razılıq verəcək", - deyə Baş nazir saziş imzalandıqdan sonra sosial şəbəkə hesabında bildirib.

Belə görünür ki, hələlik rəsmi Kiyev öhdəliklərini tam şəkildə yerinə yetirməyə tələsmir və buna cavab olaraq da Budapeşt danışıqlar prosesini əngəlləyir.

İkinci məsələyə gəldikdə isə Aİ Ədalət Məhkəməsi 2024-cü ilin iyununda Macarıstana 200 milyon avro məbləğində birdəfəlik cərimə tətbiq edib və qərarın icrasında hər gecikdirilən gün üçün əlavə 1 milyon avro ödəmək öhdəliyi qoyub. Cərimə Budapeştin Aİ-nin sığınacaq və miqrasiya qaydalarına əməl etməməsi ilə əlaqədar tətbiq olunub.

**Mübariz FEYİZLİ**

# Bir kliklə başlayan asılılıq

## Dünya uşaqlar üçün sosial şəbəkə qaydalarını sərtləşdirir

Sosial şəbəkələrə daxil olmaq üçün uşağın neçə yaşında olması məsələsi artıq valideynin evdə qoyduğu qayda deyil, dövlətlərin qanunvericiliyinə düşən hüquqi məsələyə çevrilib və dünyanın müxtəlif ölkələrində eyni sual getdikcə daha sərt şəkildə səslənir: uşağı rəqəmsal platformanın yaratdığı risklərdən qorumaq üçün məsuliyyət harada bitir, platformanın kommersiya marağı harada başlayır və dövlət hansı yaş həddindən sonra uşağın sosial şəbəkəyə çıxışını məhdudlaşdırmaq hüququna malikdir?

Bu müzakirənin arxasında artıq kifayət qədər ciddi rəqəmlər var. Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə Regional Ofisinin 25 sentyabr 2024-cü ildə açıqladığı, 44 ölkə və regionda 11, 13 və 15 yaşlı təxminən 280 min yeniyetmənin iştirak etdiyi araşdırmaya görə, problemli sosial media istifadəsinin payı 2018-ci ildəki 7 faizdən 2022-ci ildə 11 faizə yüksəlib. Qızlarda bu göstərici 13 faiz, oğlanlarda isə 9 faiz olub. Təşkilat "problemli istifadə" dedikdə sosial şəbəkədən istifadəyə nəzarəti itirmək, istifadə etmədikdə narahatlıq keçirmək, digər fəaliyyətləri sosial mediaya qurban vermək və gündəlik həyata mənfi təsirlərin yaranması kimi asılılığa bənzər davranışları nəzərdə tutur. Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktoru Dr Hans Henri P. Kluge həmin məlumatların açıqlanması zamanı sosial medianın həm müsbət, həm də mənfi nəticələrinin olduğunu, lakin problemli istifadənin artmasının artıq ciddi sağlamlıq məsələsinə çevrildiyini bildirib.

Məsələ yalnız sosial şəbəkədə keçirilən saatların çoxluğundan ibarət deyil. Platformaların özləri də uşağın diqqətini mümkün qədər uzun müddət saxlamaq üçün hazırlanmış mexanizmlərdən istifadə edir: sonsuz lent, avtomatik video keçidi, fərdiləşdirilmiş tövsiyələr, bildirişlər, "like" və izləyici göstəriciləri, istifadəçini yenidən platformaya qaytaran alqoritmlər və onun maraqlarına uyğun olaraq fasiləsiz yeni məzmun təqdim edən sistemlər uşağın davranışını sadəcə müşahidə etmir, müəyyən mənada onu formalaşdırır. Ümumdünya Səhiyyə Təşkilatı da rəqəmsal mühitlərin neytral olmadığını, onların necə dizayn edildiyinin, necə idarə olunduğunun və kommersiya baxımından necə monetizasiya edildiyinin uşaqların sağlamlığına təsir göstərdiyini açıq şəkildə vurğulayır.

Amerikalı sosial psixoloq və Nyu-York Universitetinin professoru Jonathan Haidt bu məsələdə daha sərt mövqe tutan alimlərdəndir. Onun 2024-cü ildə nəşr olunmuş "The Anxious Generation" kitabında smartfon və sosial media istifadəsinin yeniyetmələrin psixi sağlamlığı və sosial inkişafı ilə əlaqəsi araşdırılır. Haidt sosial media üçün minimum yaş həddinin 16 yaşa qaldırılmasını və uşaqların daha erkən yaşlarda smartfonlardan asılı vəziyyətə düşməsinin qarşısının alınmasını müdafiə edir. 2026-cı ilin yanvarında Böyük Britaniyanın səhiyyə naziri Wes Streeting tərəfindən sosial media üzrə yaş məhdudiyyətləri məsələsində Britaniya rəsmilərinə məsləhət vermək üçün dəvət olunması onun bu müzakirədəki təsirinin göstəricilərindən biridir.

Lakin elmi müzakirə bununla bitmir və sosial medianın uşaqlar üçün yalnız zərərli olduğunu söyləmək də elmi mənzərəni həddindən artıq sadələşdirərdi. Amerika Pediatriya Akademiyasının 2026-cı il materiallarında sosial medianın uşaqlar və yeniyetmələr üçün həm faydalı, həm də zərərli nəticələr yarada bildiyi, nəticənin istifadə formasından, məzmundan və uşağın fərdi xüsusiyyətlərindən asılı olduğu qeyd edilir. Amerika Psixoloji Assosiasiyası da "problemli sosial media istifadəsi" üçün konkret əlamətlər müəyyənləşdirir: yeniyetmənin dayandırmaq istəsə də istifadəni dayandıra bilməməsi, sosial şəbəkəyə fasiləsiz çıxışı təmin etmək üçün həddindən artıq səy göstərməsi, istifadənin nəzərdə tutulduğundan daha uzun sürməsi və sosial münasibətlərə, təhsil imkanlarına zərər vurması bunların sırasındadır.



Bu fərq mühümdür, çünki hazırda müxtəlif ölkələrin qəbul etdiyi qanunlar "internet qadağası" deyil. Söhbət konkret olaraq sosial şəbəkə hesabının yaradılmasına və saxlanmasına yaş həddi qoyulmasından gedir.

Bu istiqamətdə ən sərt və artıq qüvvədə olan model Avstraliyadadır. 10 dekabr 2025-ci ildən etibarən Avstraliyada Facebook, Instagram, TikTok, Snapchat, YouTube, X, Reddit, Twitch, Threads və Kick kimi platformalar 16 yaşdan aşağı şəxslərin hesab yaratmasının və ya mövcud hesablarını saxlamasının qarşısını almaq üçün "ağlabatan tədbirlər" görməlidir. Qanun uşağın internetdən və ya bütün rəqəmsal xidmətlərdən istifadəsini qadağan etmir; hüquqi öhdəlik platformanın üzərinə qoyulur. Avstraliyanın eSafety Commissioner qurumu bildirir ki, 2025-ci ilin dekabr ayının ortalarına qədər yaş məhdudiyyəti tətbiq olunan platformalar 16 yaşdan aşağı 4,7 milyon hesabın girişini dayandırıb.

Amma Avstraliya təcrübəsi başqa bir həqiqəti də üzə çıxarıb: qanun qəbul etmək başqa, onu həyata keçirmək tamam başqa məsələdir. 2026-cı ilin avqustunda Avstraliya Senatında keçirilən araşdırma zamanı texnologiya şirkətləri ilk məlumatların ehtiyatla qiymətləndirilməsini tələb edib. eSafety Commissioner Julie Inman Grant isə tətbiqin ilk aylarında müəyyən irəliləyiş olduğunu bildirib. Eyni araşdırmada Meta 756 min, YouTube təxminən 740 min, TikTok isə 550 minə yaxın yaş məhdudiyyətli hesabı blokladığını açıqlayıb. Bununla yanaşı, şirkətlər yaşın müəyyənləşdirilməsi texnologiyalarının hələ inkişaf etdiyini və ilkin nəticələrdən yekun nəticə çıxarmağın tez olduğunu bildirib.

Bu vəziyyət qanunun qarşısına ən çətin texniki sualı çıxarır: uşağın yaşını necə müəyyənləşdirmək olar?

Əgər platforma şəxsiyyət vəsiqəsi tələb edirsə, uşağın şəxsi məlumatlarının qorunması problemi yaranır. Üz tanıma və ya yaş təxmin edən süni intellektdən istifadə edilirsə, biometrik məlumatların emalı və səhv müəyyənləşdirmə riski ortaya çıxır. Sadəcə, istifadəçinin öz yaşını yazması tələb olunursa, sistem asanlıqla aldadıla bilər. Avstraliya qanunvericiliyinin də xüsusi olaraq yaşın müəyyənləşdirilməsi üçün məxfilik qoruyucularını nəzərdə tutması təsadüfi deyil.

Fransa isə bu məsələdə daha bir maraqlı nümunə yaradıb. Ölkə parlamenti 2026-cı ilin iyulunda 15 yaşdan aşağı uşaqların sosial şəbəkələrdən istifadəsini yasaqlayan qanun qəbul etmişdi. Qanun TikTok, Instagram və digər platformalarda yaş yoxlaması mexanizmlərini nəzərdə tutur, mövcud 15 yaşdan aşağı istifadəçilərin hesablarının bağlanmasını tələb edirdi. Prezident Emmanuel Makron bu təşəbbüsü uşaqların inkişafını və sağlamlığını qorumaq məqsədi ilə dəstəkləmişdi. Lakin 14 avqust 2026-cı ildə Fransanın Konstitusiya Şurası qanunu qüvvədən saldı; məhkəmə yaş yoxlamasının necə həyata keçiriləcəyinin kifayət qədər aydın müəyyənləşdirilmədiyini, tədbirin ifadə və kommunikasiya azadlıqlarına, eləcə də şəxsi həyata həddindən artıq müdaxilə yaratdığını bildirdi. Bunun ardınca Makron qanunun hüquqi problemləri aradan qaldırılmaqla yenidən hazırlanmasını tapşırıb.

Fransa presedenti hüquqi baxımdan xüsusilə maraqlıdır, çünki burada uşaqların müdafiəsi ilə fundamental hüquqlar birbaşa toqquşub. Bir tərəfdə dövlətin uşağın sağlamlığını və təhlükəsizliyini qorumaq vəzifəsi, digər tərəfdə ifadə və kommunikasiya azadlığı, şəxsi həyatın toxunulmazlığı və internetə çıxış məsələsi dayanır. Buna görə yaş məhdudiyyəti qoymaq yalnız "uşaqları qoruyaq" məntiqi ilə həllini tapan məsələ deyil; hüquqi vasitənin məqsədəuyğun, zəruri və proporsional olması da məhkəmə nəzarətindən keçir. Fransadakı qərarın əsas məzmunu məhz bundan ibarətdir.

Norveçdə də hökumət 15 yaş həddinin tətbiqini gündəmə gətirib. UNICEF-in 2025-ci ilin yekunlarıyla bağlı sənədində Avstraliyadan sonra Norveçin 15 yaş həddi üzrə ictimai məsləhətləşməyə başladığı, Malayziyanın isə 2026-cı ildən 16 yaşdan aşağı şəxslər üçün məhdudiyyətlər tətbiq etmək niyyətini açıqladığı qeyd olunur. Avropa Parlamentinin də Aİ səviyyəsində standart olaraq 16 yaş həddinin müəyyənləşdirilməsini nəzərdə tutan, lakin hüquqi baxımdan məcburi olmayan qətnamə qəbul etdiyi göstərilir.

İndoneziyada isə 2026-cı ildə 16 yaşdan aşağı uşaqlar üçün sosial media məhdudiyyətləri tətbiq olunmağa başlayıb. Ümumdünya Səhiyyə Təşkilatının 2026-cı ilin iyulunda dərc etdiyi materialda Avstraliya, İndoneziya, Fransa və digər ölkələrdə yaş məhdudiyyətlərinin artıq dövlət siyasətinə çevrildiyi, İspaniyanın da belə məhdudiyyətləri elan etdiyi, İrlandiyanın isə Aİ tərəfdaşları ilə yaş yoxlaması sistemləri üzərində işlədiyi bildirilir.

Beləliklə, müxtəlif ölkələrdə yaş həddi 15 və 16 arasında formalaşır. Avstraliya 16 yaşı seçib, Fransa 15 yaş həddini qanunlaşdırmağa çalışıb, Norveç 15 yaş variantını müzakirə edir, İndoneziya 16 yaş həddinə keçib. Bu fərq özü də maraqlıdır: dünya hələ "düzgün yaş" məsələsində vahid hüquqi mövqeyə gəlməyib.

Azərbaycanın bu müzakirəyə daxil olması isə artıq baş vermiş faktdır.

9 iyul 2026-cı ildə Milli Məclisdə "Rəqəmsal inkişaf, süni intellekt və uşaqların sosial şəbəkə platformalarındakı zərərli təsirlərdən qorunması" mövzusunda ictimai müzakirə keçirilib. Tədbiri Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası təşkil edib. Komissiyanın sədri Ramid Namazov bildirib ki, sosial şəbəkələrdə kiberzorakılıq, kiberqısnama, yaşa uyğun olmayan məzmun və uşaqların onlayn cinsi istismarı riski ciddi narahatlıq doğurur. Müzakirədə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, eləcə də digər deputatlar və ekspertlər iştirak ediblər.

Azərbaycan parlamentində məsələ bununla da bitməyib. 30 iyun 2026-cı ildə Milli Məclis İnzibati Xətalar Məcəlləsinə, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlara dəyişiklikləri qəbul edib. Bu dəyişikliklərin məqsədi sosial şəbəkə platformalarında uşaqların zərərli informasiyadan qorunması üçün hüquqi mexanizmləri gücləndirməkdir.

Daha sonra hazırlanmış yeni qanun layihəsində məsələ daha konkret xarakter alıb. Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc qanun layihəsinin uşaqların sosial şəbəkə platformalarından istifadəsini hüquqi baxımdan tənzimlədiyini açıqlayıb. Layihənin ən diqqətçəkən müddəalarından biri 16 yaşı tamam olmayan şəxslərin yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformalarında fərdi rəqəmsal hesab yarada bilməməsidir. Layihədə yaşın müəyyənləşdirilməsi üçün texniki mexanizmlərin də nəzərdə tutulduğu bildirilib. Burada Azərbaycanın yanaşması Avstraliya modelinə müəyyən mənada yaxınlaşır: məsuliyyət yalnız uşağın və valideynin üzərinə qoyulmur, platformanın özü də hüquqi öhdəlik daşıyan tərəfə çevrilir.

Azərbaycanın bu sahədəki mövqeyinin daha bir göstəricisi 27 fevral 2026-cı ildə Prezident İlham Əliyevin imzaladığı "Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı bəzi məsələlər haqqında" Sərəncamdır. Sərəncamda uşaqların sosial şəbəkələrdən qanunauyğun istifadəsi, uşaq hüquqlarının müdafiəsi və uşaqların rəqəmsal rifahı üzrə elmi tədqiqatların təşviqi ilə bağlı tədbirlər nəzərdə tutulub.

Milli Məclisdə aparılan araşdırmaların nəticələri isə məsələnin Azərbaycanda nə qədər geniş yayıldığını göstərir. Parlamentin 2026-cı il materiallarında təqdim edilən sorğu nəticələrinə görə, məktəbli uşaqlar arasında sosial mediadan istifadə göstəricisi 63 faizdir; ən çox istifadə olunan platformalar YouTube - 69 faiz, WhatsApp - 47 faiz, TikTok - 33 faiz olaraq göstərilir. Uşaqların 18 faizi sosial mediada gündə təxminən 5 saat və daha çox vaxt keçirdiyini, 24,5 faizi isə buna gündə 4 saata qədər vaxt sərf etdiyini bildirib. Bu rəqəmlər "sosial şəbəkə uşaqlar üçün zərərlidir" kimi ümumi hökm çıxarmağa imkan vermir, amma problemin miqyasını göstərir: sosial media artıq uşağın həyatında təsadüfi və epizodik fəaliyyət deyil, əhəmiyyətli vaxt aparan gündəlik davranışa çevrilib.

Azərbaycan cəmiyyətində də məsələ yalnız psixoloji sağlamlıqla məhdudlaşmır. Milli Məclisdəki müzakirələrdə kiberzorakılıq, kiberqısnama, yaşa uyğun olmayan informasiya, onlayn cinsi istismar, rəqəmsal asılılıq və uşaqların manipulyativ məzmuna məruz qalması birlikdə nəzərdən keçirilib.

Burada daha bir mühüm məqam ortaya çıxır: uşağın sosial şəbəkəyə girişinin məhdudlaşdırılması ilə onun internetdən tamamilə təcrid edilməsi eyni şey deyil. Avstraliya qanununda da bütün internet xidmətləri qadağan olunmur; təhsil, mesajlaşma və başqa xidmətlər müəyyən hallarda yaş məhdudiyyətindən kənarda qalır. Məsələn, Avstraliyanın eSafety Commissioner siyahısında WhatsApp, Messenger, Google Classroom, Roblox və YouTube Kids hazırkı qaydalara əsasən yaş məhdudiyyətli sosial media platformaları sırasına daxil edilmir. Bu yanaşma hüquqi baxımdan da əhəmiyyətlidir, çünki uşağın sosial şəbəkədən qorunması ilə onun informasiya əldə etmək, təhsil almaq, ünsiyyət qurmaq və rəqəmsal məkanda iştirak etmək hüquqları arasında sərhəd çəkilir.

Ümumdünya Səhiyyə Təşkilatının 2024-cü ildəki araşdırmasının daha bir nəticəsi diqqət çəkir: sosial mediadan çox istifadə edən, lakin problemli istifadə əlamətləri göstərməyən yeniyetmələr yaşıd dəstəyinin və sosial əlaqələrin daha güclü olduğunu bildiriblər. Yəni elmi mənzərə "çox istifadə = mütləq zərər" qədər sadə deyil. Əsas problem nəzarətin itirilməsi, platformanın uşağın davranışına mənfi təsiri və bunun gündəlik həyat, yuxu, təhsil və sosial münasibətlər üzərində yaratdığı nəticələrdir.

Məhz buna görə dünyada başlayan hüquqi proses sadəcə "uşaqlara telefon vermək olmaz" mübahisəsi deyil. Məsələnin mərkəzində daha böyük bir dəyişiklik dayanır: dövlətlər ilk dəfə böyük sosial media şirkətlərinə uşaqların platformalarda necə saxlandığı, yaşın necə yoxlandığı və uşaqlara hansı təhlükəsizlik standartlarının tətbiq edildiyi barədə birbaşa hüquqi məsuliyyət yükləməyə başlayır. Avstraliyada bu məsuliyyət artıq qüvvədədir, Fransada parlament bunu qanunlaşdırdı, lakin Konstitusiya Şurası hüquqi təminatların yetərli olmadığını əsas gətirərək dayandırdı, Norveçdə 15 yaş həddi müzakirə olunur, İndoneziyada 16 yaş məhdudiyyəti tətbiq edilir, Avropa İttifaqında 16 yaş həddi ətrafında siyasi müzakirə gedir. Azərbaycanda isə 16 yaşdan aşağı şəxslərin müəyyən sosial şəbəkə platformalarında fərdi rəqəmsal hesab yaratmasının məhdudlaşdırılmasını nəzərdə tutan qanunvericilik prosesi artıq Milli Məclisin gündəliyinə daxil olub.

Beləliklə, "uşaq sosial şəbəkələrdən istifadə etməlidirmi?" sualı artıq əvvəlki kimi yalnız ailə daxilində həll olunmalı məsələ deyil. Bu məsələ uşaq hüquqları, şəxsi məlumatların qorunması, ifadə azadlığı, platformaların hüquqi məsuliyyəti, psixi sağlamlıq və dövlətin uşaqları rəqəmsal mühitdə qorumaq səlahiyyətlərinin kəsişdiyi mürəkkəb hüquqi sahəyə çevrilib və dünyanın müxtəlif ölkələrində qəbul edilən qanunların ortaya çıxardığı ən maraqlı nəticə də budur: sosial şəbəkələrin uşaqlar üçün təhlükəsiz olub-olmaması barədə mübahisə artıq məhkəmə və parlamentlərin masası üzərindədir. İndi hüquq sistemləri texnologiyanın özündən daha sürətlə dəyişən bir mühitdə uşağın azadlığı ilə onun müdafiəsi arasındakı sərhədi müəyyənləşdirməyə çalışır.



*Kəramət QƏNBƏROV,*
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Sənədlərlə iş və arxiv şöbəsinin müdiri, "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müəllimi, beynəlxalq hüquq üzrə ekspert və beynəlxalq münasibətlər üzrə tədqiqatçı*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



## Şənbə üçün nəzm



O pəncərə tozlu idi,
Sən yaz yağışıtək yudun o çirki...
Sən oldun bu təzə-tər ürəyimin
Arzusu, sevinci, kədəri, ilki...

O pəncərədə qaranlıq,
Sən gəldin-işığa büründü bil ki...
Sən ki, hiss etmədin bu çırpıntımı,
Gözlərim dalınca süründü bil ki...

O pəncərə sınmaq üzrə -
Vəhşi küləklərin içində təkdim,
Hopdun varlığıma bir an içində,
Səni ürəyimə, içimə çəkdim...

İndi pəncərəmdə sənin xəyalın...
İtməz ki, getməz ki, o iyin, qoxun...
Sən də düşündünmü qara gözləri?
Barı xəyalında üzümə toxun...

***

Bir şəklin sehrinə düşüb
Tutub əlimdə saxlaram...
Baxışları ürəyimə
Çilənəcək aram-aram...

Bir şəklin sehrinə düşüb
Titrəyəcək barmaqlar da...
Qəlbimdəki həyəcanlar
Əksin tapar varaqlarda...

Bir şəklin sehrinə düşüb
Qərq olaram min sevincə...
Təbəssümü saçılacaq
Həzin-həzin, incə-incə...

Bir şəklin sehrinə düşüb
Məsafələr qısalacaq...
Sevinc-kədər göz yaşları
Kipriyimdən asılacaq...

Bir şəklin sehrinə düşüb
Əllərini duya bilsəm...
Ay həyatımın sultanı
Gözlərindən doya bilsəm,
Sonra rahat olub ölsəm...

***

Səndən uzaqlarda daha yaxşıyam -
Səndən uzaqlarda daha yaxınsan...
Gəl danışım sənə sənsiz anları -
Gəl mənim ruhuma otur yaxın sən.

Göylərdə izləyib xoş xəyalını,
Fikirlər içində yarışaram mən.
Hər gecə yuxumda qonaq kimisən,
Hər səhər yuxumu danışaram mən.

Bu sonsuz səmada süzmək istərəm,
Həsrət qanad qırar, düşürər məni.
Bu isti havanın, bu isti günün
İsti şüası da üşüdər məni.

Səndən uzaqlarda daha yaxşıyam -
Sevincin, kədərin fərqi olmaz ki...
Sənə ha danışım sənsiz günləri -
"Quyuya ha su tök, quyu dolmaz ki"...

***

Sənə bir az səndən deyim -
Gözlərində səssiz kədər,
Azca, həzin təbəssümün
Zərif olar sənin qədər...

Sənə bir az səndən deyim -
Yanaqların Ay parçası...
Səni qələm yaza bilməz,
Çəkməz rəssamın fırçası...

Sənə bir az səndən deyim-
Ürəyində kin olmaz ki...
Sənlə keçən yuxularım
Sabah-sabah çin olmaz ki...

Sənə bir az səndən deyim -
Hər zərrəndə bir işıq var,
Cismin cazibəsi heçdir -
Ruhunda da yaraşıq var!

Sənə bir az səndən deyim -
Ya danışım ürəyinlə...
Gözlərimlə dediyimi
Şirin nəğmə kimi dinlə...







*Samit Nuriyev*

Bu qədər uzağıq, bu qədər yaxın,
Səni unutmağa çatarmı vaxtım?
Dolum gözlərinə, qəlbinə axım,
Dilinin kəlməsi, hər sözü olum...

Üzümü görəndə üzün gülərsə,
Bu eşqin qoxusu sənə gələrsə...
Ömrünün gecəsi bir an dilərsə
Ömrünün günəşli gündüzü olum...

Vaxtı düz bölmədik, qalıq saxladıq,
Həsrəti ayıltdıq, oyaq saxladıq...
Dəmir qapıları bərk-bərk bağladıq,
Taxta qapınınmı əzizi olum?

Hicranın çəkisin ölçək, deyirsən -
Ən gözəl yuxusan, gerçək deyilsən.
Sən ki, öz ruhundan göyçək deyilsən,
Qoy sənin ruhunun əkizi olum...

***

Siyah saçın yana düşər,
Od baxışın cana düşər.
Həzin-həzin, qana düşər
Sənin gülüşlərin...

Gah uzaqsan, gah da yaxın,
Arasında varın-yoxun...
Dolur içimə axın-axın
Sənin gülüşlərin...

İçimdədir səbr, dözüm,
Yola baxar sonsuz, gözüm.
İncə-incə, düzüm-düzüm
Sənin gülüşlərin...

Deməsəm də sözü sənə,
Ürək açır özü sənə...
Dayanma, gülümsənə...
Sənin gülüşlərin....

***

# Gündoğanda ədəbiyyat

## *Yaranır. Və dünyanı fəth edir.*



*Məqsəd Nur*

Nidzenin sehrinə düşən oxucu çətin ki, yapon ədəbiyyatından uzaqlaşa bilsin. 1940-cı ildə İmperator kitabxanasının dərinliklərində itib-qalmış "İstənilməyən hekayə" (tərcümə şərtidir) adlı avtobioqrafik memuarın əlyazması, həqiqətən, itirilmiş inci hesab edilirdi. Lakin təsadüfən, XVII əsrə aid bir nüsxənin tapılması yapon ədəbiyyatının tarixinə yenidən nəzər salmaq üçün ciddi səbəb yaratmış oldu. Nidze 1258-1307-ci illər arasında yaşayıb-yaratmış saray şairəsi və yazıçı idi. Onun həyatı saray kənizliyindən buddist rahibəliyinə qədər davam edərək, bütün Yaponiyanı payi-piyada gəzib öz xatirələrini açıq, cəsarətli bir dildə təsvir edə bilməsi ilə seçilir. Həm də ta o vaxtadək ki, Yaponiyada bütün idarəçilik samurayların əlinə keçir...

Nidzeni oxuduqdan sonra bütün yapon ədəbiyyatı sanki incə bir sap üzərinə düzülür, hətta dünyaca məşhur Murakami də bəzən Nidzenin bulağından su içmiş kimi görünür...

Murakami demişkən, artıq dünyanı fəth etmiş yapon ədəbiyyatı anlayışı da var. Bəs onlar bunu necə ediblər?

Elə həm də yuxarıda adı çəkilən Nidzenin "əli ilə". Bir vaxtlar, bu nadir əlyazmanın tapılması dünya mediasının trendinə çevrilmişdi. Hamı bir qadının dilindən nağıl edilən sirli-sehirli hekayətləri oxumaq üçün kitab dükanlarında saatlarla növbə gözləməyə hazır idi. Nidze Haruki Murakami, Yoko Oqava, Sayaka Murata, hətta ecazkar Rünoske Aqutaqavaya yol açırdı. Budur, istər klassik, istərsə də müasir yapon ədəbiyyatı dəbdədir, oxunur, müzakirə olunur və satılır.

İndi Yaponiyanın robotlar ölkəsindən daha çox Ədəbiyyat ölkəsi kimi tanınması şübhə doğurmur. Artıq müasir yapon ədəbiyyatının dünyada tanıdılması üçün genişmiqyaslı layihələr həyata keçirilir: əsərlərin əcnəbi dillərə tərcüməsi, peşəkar tərcüməçilərin yetişdirilməsi və müxtəlif ədəbi platformaların yaradılması işləri geniş vüsət alıb. "JLPP" (Japanese Literature Publishing Project) və "Yaponiya Fondu" (The Japan Foundation) həm müasir yapon müəlliflərinin əsərlərinin xaricdə nəşr edilməsində, həm də tərcümə edilmiş əsərlərin nəhəng bir data bazada qeydə alınıb qorunmasında birgə fəaliyyət göstərir. Və ruhdan düşməyərək, əllərində çıraq, dünyanın hər yerində gənc və istedadlı ədəbi tərcüməçilər tapmaq üçün axtarışlarını davam etdirir, bu istiqamətdə müsabiqələr elan edir, müxtəlif layihələr həyata keçirirlər.

Hələ ki bizdə birbaşa yapon dilindən tərcümələrə rast gəlinmir. Amma digər dillərdən tərcümə edilən gündoğan ölkə müəllifləri kitab dükanlarımızın vitrinlərini bəzəyir, oxunurlar.

Deyəsən, indi məsələ heç də dünyanı fəth etməkdə deyil, daha çox mədəniyyətin varlığından söz açaraq onu diri saxlaya bilməkdədir. Ümumiyyətlə, Ədəbiyyat dünyanı fəth etməlidirmi? Bəlkə, fəth etməyə çalışmaqdansa, hər Ədəbiyyatın daha çox "mən buradayam" deməyə gücü çatmalıdır?

# Xeyriyyəçiliyin dəyəri ölçülməz

İnsan yalnız öz qayğıları ilə deyil, ətrafındakı insanların yaşadığı çətinliklərlə də maraqlandıqda əsl həmrəyliyin mənası ortaya çıxır. Ehtiyac içində olan birinə dəstək göstərmək, kimsəsiz birinin yanında olmaq hər kəsin bacardığı və seçdiyi yol deyil. Xeyriyyəçilik isə təkcə maddi yardım göstərməklə məhdudlaşmır. Bu, insanın mərhəmətini, vicdanını və başqasına olan məsuliyyət hissini ifadə edən ən dəyərli davranışlardan biridir. Çünki əsl xeyirxahlığın qarşılığı bəzən bir uşağın üzündə yaranan təbəssümdə, bir ailənin yenidən ümidlənməsində, yaxud bir xəstənin həyata tutunmasında görünür. Belə məqamlar göstərir ki, edilən hər bir yaxşılıq cəmiyyətdə insanlıq və həmrəylik duyğusunu da gücləndirir.

Hər il sentyabrın 5-i dünya Beynəlxalq Xeyriyyəçilik Gününü qeyd edir. Bu barədə qərar 2012-ci il dekabrın 17-də BMT Baş Məclisinin 67-ci sessiyasında qəbul edilib. İlk dəfə 2013-cü ildə keçirilib. Əlamətdar gününün sentyabrın 5-də qeyd edilməsinin səbəbi dünyada xeyriyyəçilik və humanizm anlayışının simvollarından birinə çevrilmiş Tereza ananın vəfat etdiyi gündür.

Bu gün təkcə ehtiyacı olanlara əl uzatmaq üçün deyil, həm də insanlığın ən uca dəyərlərini xatırlatmaq üçün bir fürsətdir. Mərhəmət, paylaşmaq və başqasının dərdinə şərik olmaq - bu günün əsas mesajıdır.

Ölkəmizdə xeyriyyəçilik tarixən çox güclü olub. 19-cu əsrin sonu - 20-ci əsrin əvvəllərində bir sıra böyük xeyriyyəçilər yetişmişdi. Onların fəaliyyəti xalqımızın maariflənməsinə, mədəniyyətinə və sosial rifahına mühüm təsir göstərdi.

## Xeyriyyəçiliyin qızıl səhifəsi

Tarixin yaddaşına həkk olunmuş elə adlar var ki, illər keçsə də, nəsillər dəyişsə də, onların xeyirxah əməlləri işığını itirmir. Bu adlardan biri, bəlkə də birincisi Hacı Zeynalabdin Tağıyevdir. Tağıyev yalnız neft milyonçusu deyildi, o, Azərbaycan xalqının maarif yolunda çıraq yandıran böyük bir şəxsiyyət idi. Hacı Zeynalabdin milyonlarla sərvət qazanmışdı, amma sərvət onun cibinə yox, ürəyinə yük idi. O yükü insanlara payladıqca yüngülləşirdi, xalqına xidmət etdikcə özünü ucaldırdı. Onun ən böyük və tarixi addımlarından biri Qızlar məktəbi oldu. O dövrdə qadının təhsil alması, elmə yaxınlaşması çoxlarının xəyalına belə sığmırdı. Amma Tağıyev bu qaranlıq düşüncələrin üzərinə işıq saldı. Həmin məktəb təkcə bir binanın tikilməsi deyildi, Azərbaycan qadınının həyatına açılan qapı, azadlıq və inkişaf yolunun başlanğıcı idi. Hacı Zeynalabdin həm də ucqar kəndlərə məktəb tikdirən, tələbələri xaricə oxumağa göndərən, kasıb ailələrin çörək dərdini yüngülləşdirən bir insan idi. Onun yardımı ilə oxuyan gənclər sonradan xalqın savadlı ziyalılarına çevrildilər.

Publisistik dillə desək, Tağıyevin həyatı insanlıq dərsidir. O, sübut etdi ki, sərvət insanı böyütmür, insan sərvəti böyüdür. Çünki bu gün onun neft quyularından, pullarından əsər-əlamət qalmayıb. Amma onun tikdirdiyi məktəblərdən, açdığı yollarla gedən insanların düşüncəsindən, millətin yaddaşında qoyduğu izdən böyük sərvət yoxdur.




Müasir dövrümüzdə insanlara qayğı göstərmək, onların həyatını daha rahat və mənalı etmək, gələcək nəsillərə ümid yaratmaq baxımından Heydər Əliyev Fondunun xeyriyyəçilik sahəsində nümunəvi fəaliyyəti var. Fondun fəaliyyəti müxtəlif sahələri əhatə edir və hər layihədə insanın rifahı ön plana çıxır. Aztəminatlı ailələr, əlillər, tələbələr və yaşlılara göstərilən dəstək Fondun sosial məsuliyyətinin əyani göstəricisidir. Məktəblərə və universitetlərə yönələn proqramlar, təqaüdlər, təhsil layihələri gənclərə yeni imkanlar açır, onların bilik və bacarıqlarını inkişaf etdirməyə kömək edir.

## Qayğı və ümid mənbəyi olan Fond...

Mədəniyyət və incəsənət sahəsində də Fondun rolu böyükdür. Tarixi abidələrin bərpası, sərgilərin və muzeylərin dəstəklənməsi, xalq sənətkarlığının qorunması Azərbaycan irsinin gələcək nəsillərə ötürülməsini təmin edir.

Heydər Əliyev Fondu yalnız yerli səviyyədə deyil, beynəlxalq səviyyədə də fəaliyyət göstərir. Humanitar yardımlar, təbii fəlakətlər zamanı dəstək, qlobal sosial proqramlarda iştirak Fondun nüfuzunu və məsuliyyətini daha da artırır.

Bu xeyriyyəçilik ənənəsi davamlılıq prinsipi üzərində qurulub. Fond insanlara kömək etməklə yanaşı, cəmiyyətin inkişafına, sosial bərabərliyin təmin olunmasına və gələcək nəsillərin rifahına xidmət edir. Onun fəaliyyəti göstərir ki, xeyriyyəçilik yalnız bir yardımdan ibarət deyil, səmimi qayğı, diqqət və insanlara olan hörmət deməkdir.

Heydər Əliyev Fondunun nümunəsi göstərir ki, xeyriyyəçilik ənənəsi davamlı olduqda, cəmiyyətin hər üzvü üçün ümid və dəstək mənbəyinə çevrilir. İnsanlara qayğı göstərmək həm də ölkənin gələcəyinə sərmayə qoymaqdır.

Dünyanı dəyişdirmək bəzən böyük məqsəd kimi görünsə də, böyük dəyişikliklər kiçik addımlardan başlayır. Bir yaxşılıq başqa bir yaxşılığa, bir insanın mərhəməti digərinin ümidinə çevrilə bilər. Bəlkə də buna görə xeyriyyəçilik sadəcə yardım deyil, insanlığın özünü qorumaq üçün yaratdığı ən qədim və gözəl dəyərlərdən biridir...

*Yeganə BAYRAMOVA*

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4448
Sifariş: 1133
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova